# GÜRCÜSTAN

SAYI 07-08 (13.377)
CÜMƏ 31 YANVAR 2025-ci İL

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

"საქართველო"
"SAKARTVELO"

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა

İctimai-siyasi həftəlik qəzet // საზოგადოებრივ-პოლიტიკური კვირეული გაზეთი

E-mail: Gurcustan_1921@mail.ru Tel/ტელ: +995 32 222 04 76 E-mail: gurcustan2023@gmail.com


## BAŞ NAZİR İRAKLİ KOBAXİDZE BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNƏ SƏFƏRDƏ OLUB



***Gürcüstanın Baş naziri İrakli Kobaxidze Birləşmiş Ərəb Əmirliklərinə səfər edib.***

Bu barədə hökumət administrasiyası məlumat yayıb. Məlumata görə, Əbu-Dabi beynəlxalq hava limanında İrakli Kobaxidzeni Birləşmiş Ərəb Əmirliklərinin dövlət naziri Əhməd Əl Saye qarşılayıb. Səfər çərçivəsində hökumət başçısı Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan, eləcə də Birləşmiş Ərəb Əmirliklərinin Tolerantlıq naziri Şeyx Nəhyan bin Mübarək Əl Nəhyan ilə görüşüb. Səfər çərçivəsində ən böyük inkişaf şirkətlərindən biri olan EMAAR ilə əməkdaşlıq. Memorandumu imzalanıb. Memorandum çərçivəsində Gürcüstana milyard dollarlıq investisiya yatırılacaq. Bundan əlavə, Abu Dabi Dövlət İnvestisiya Şirkəti və onun logistika departamenti, Orta Dəhlizin inkişafında fəal iştirak edən və Tbilisi ilə quru liman layihəsini həyata keçirən "Abu DhWabi Port Group" ilə görüş keçirilib. Şirkətlə strateji, logistika və nəqliyyat layihələrində əməkdaşlığın daha da genişləndirilməsi nəzərdə tutulur. Baş nazir Birləşmiş Ərəb Əmirliklərinə nümayəndə heyəti ilə birlikdə səfər edib. Heyətin tərkibinə birinci müavin, İqtisadiyyat və Dayanıqlı İnkişaf naziri Levan Davitaşvili, Xarici işlər naziri Maka Boçorişvili, Tbilisi meri Kaxa Kaladze, Acara Muxtar Respublikasının hökumət sədri Tornike Rijvadze və Hökumət Administrasiyasının rəhbəri Levan Jorjoliani daxil idi.

## BMT-nin BAŞ KATİBİ İRAKLİ KOBAXİDZENİ TƏBRİK EDİB



***BMT-nin Baş katibi Antonio Quterreş İrakli Kobaxidzeni yenidən Gürcüstanın baş naziri vəzifəsinə təyin olunması münasibətilə təbrik edib.***

Bu barədə BMT baş katibinin təbrik məktubunda deyilir.

Məktubda qeyd edilib ki, BMT təşkilatın dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün Gürcüstan hökuməti ilə gələcək əməkdaşlığı səbirsizliklə gözləyir.

*"Xüsusilə Birləşmiş Millətlər Təşkilatının dəstəklədiyi Cenevrə Beynəlxalq Müzakirələri və münaqişədən təsirlənmiş əhaliyə yardım vasitəsilə regional sülh və təhlükəsizliyin möhkəmləndirilməsi prioritet olaraq qalacaq"*, - deyə Antonio Quterreşin məktubunda deyilir.

Antonio Quterreş məktubda dinc dialoqun təşviqi üzrə səyləri dəstəklədiyini qeyd edib.

*"Mən dinc dialoqun təşviqi, qanunun aliliyinin təmin edilməsi və insan hüquqlarına hörmətin təmin edilməsi üçün bütün səyləri dəstəkləyirəm. Bundan əlavə, mən sizi hökumətinizdə və yüksək vəzifələrə təyinatlarda gender bərabərliyinə üstünlük verməyə çağırıram"*, - deyə məktubda qeyd olunub.

## TEODOROS ROSOPULOS YENİDƏN AŞPA-nın PREZİDENTİ SEÇİLİB

***Teodoros Rosopulos yenidən Avropa Şurası Parlament Assambleyasının (AŞPA) prezidenti seçilib.***

Bu barədə Avropa Şurası Parlament Assambleyasının (AŞPA) qış sessiyasının ilk iclasında elan edilib.

O, bir il müddətinə AŞPA-nın prezidenti vəzifəsini icra edəcək.

Qeyd edək ki, T.Rosopulos ötən ildə AŞPA-nın prezidenti seçilmişdi.



## PRAVOSLAV KİLSƏSİ MÜQƏDDƏS NİNONUN ANIM GÜNÜNÜ QEYD EDİB

***Yanvarın 27-də Gürcüstan müqəddəs Nino'nun anım gününü qeyd edib.***

Bu barədə məlumatı Dini İşlər üzrə Dövlət Agentliyi yayıb.

*"İlk xristian dini inancının və onun dövlət dini kimi qəbulunun başlanğıcı müqəddəs Ninonun saç tellərindən hazırlanmış üzüm xaçı ilə əlaqəlidir, bu da Gürcü mədəniyyəti və düşüncə sahəsində böyük dəyişikliklərə səbəb oldu.*

*Müqəddəs Ninonun anım günü, Gürcü xalqı və Gürcüstanın Pravoslav Kilsəsi üçün ən böyük bayramdır. Xristianlığı təbliğ edən Kapadokiyalı Ninonun böyük xidmətləri səbəbindən Pravoslav Kilsəsi onu Gürcüstanın maarifləndiricisi və havarilərin biri olaraq anır.*

*Dini İşlər üzrə Dövlət Agentliyi Gürcüstanın Apostol Kilsəsi və cəmiyyətini müqəddəs Ninonun anım gününü təbrik edir və onlara xoşbəxtlik və sülh arzulayır"*, - deyə məlumatda bildirilir.



## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ İLƏ GÜRCÜSTAN ARASINDA 6 MİLYARD DOLLARLIQ MEMORANDUM İMZALANIB



***Əbu-Dabidə Gürcüstanda misilsiz – 6 milyard ABŞ dolları həcmində sərmayənin həyata keçirilməsini nəzərdə tutan memorandum imzalanıb.*** Bu barədə Birləşmiş Ərəb Əmirliklərində səfərdə olan Baş nazir İrakli Kobaxidze jurnalistlərə açıqlamasında bildirib. Onun sözlərinə görə, çoxfunksiyalı infrastruktur layihəsi Gürcüstan iqtisadiyyatının inkişafına mühüm töhfə verəcək: *"Biz Birləşmiş Ərəb Əmirliklərində çox maraqlı görüşlər keçirdik. İlk növbədə, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti, Əbu-Dabinin rəhbəri ilə görüşdük. Bundan əlavə, nazirlərlə, hökumət üzvləri ilə çox mühüm görüşlərimiz oldu. Ölkələr arasında əlaqələrin müxtəlif aspektlərini, siyasi əməkdaşlığı müzakirə etdik. İqtisadi layihələr barəsində geniş fikir mübadiləsi apardıq. İki ölkə arasında əməkdaşlığı daha da dərinləşdirə biləcəyimiz konkret və çox maraqlı istiqamətlər müəyyən edildi. Xüsusilə qeyd etmək istəyirəm ki, bu gün ölkəmizdə misilsiz sərmayənin həyata keçirilməsini nəzərdə tutan bir memoranduma imza atdıq. Bu, Gürcüstanda həyata keçiriləcək 6 milyard ABŞ dolları həcmində bir sərmayədir. Bu sərmayəni investisiya sahəsində böyük təcrübəyə malik olan tanınmış EMAAR qrupu həyata keçirəcək. Bu, çoxfunksiyalı inkişaf layihəsidir. Tbilisidə, digər tərəfdən isə Batumidə və Qonioda çoxfunksiyalı infrastruktur inkişaf etdiriləcək. Təbii ki, bütün bunlar ölkəmizin iqtisadi inkişafına böyük töhfə verəcək, iqtisadi artım tempini daha da sürətləndirəcək, yeni iş yerləri yaradılacaq və bu, digər investorların da ölkəmizə cəlb olunmasına daha çox şərait yaradacaq"* , - deyə İrakli Kobaxidze qeyd edib.

## İSLAM DÜNYASI MERAC GECƏSİNİ QEYD EDİB



***Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi Gürcüstanın müsəlman icmasını Merac gecəsi münasibətilə təbrik edir, onlara xeyir və səadət arzulayır.***

Bu barədə Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi məlumat yayıb.

*"İslam dünyası bu gün Merac Gecəsini qeyd edir-Məhəmməd peyğəmbərin Qüdsə gedən gecə səfəri və onun göyə qalxmasını, Məhəmmədin Allahla vasitəçi olmadan danışmasını qeyd edir. Müsəlmanlar üçün digər vacib əməllərlə yanaşı, beş vaxt namaz da bu səfərlə bağlıdır"*, - deyə məlumatda bildirilir.

# PREZİDENT DAXİLİ İŞLƏR NAZİRİNİ VƏ DİGƏR POLİS ƏMƏKDAŞLARINI "ŞƏRƏF" ORDENİ İLƏ TƏLTİF EDİB

***Prezident Mixeil Kavelaşvili Baş nazirin müavini, daxili işlər naziri Vaxtanq Qomelaurini və digər polis əməkdaşlarını mükafatlandırıb.*** Prezident sarayında baş tutan tədbirdə Baş nazir İrakli Kobaxidze və parlamentin sədri Şalva Papuaşvili də iştirak ediblər. Bildirilir ki, asayişin möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə Daxili İşlər Nazirliyinin nümayəndələrinə Gürcüstanın Dövlət Mükafatı təqdim olunub. Mixeil Kavelaşvili hər bir polis əməkdaşına ölkə qarşısında xidmətlərinə görə təşəkkür edib və güclü gürcü polisinin güclü dövlətin simvolu olduğunu qeyd edib. Mükafatlandırma mərasiminin sonunda daxili işlər naziri Vaxtanq Qomelauri ölkə prezidentinə, Baş nazirə və parlamentin sədrinə verilən qiymətə görə minnətdarlığını bildirib, əməkdaşları dövlət mükafatı ilə təltif edilmələri münasibətilə təbrik edib. Qeyd edək ki, mükafat alanlar arasında Daxili İşlər Nazirliyinin Xüsusi Tapşırıqlar Departamentinin direktoru, polis polkovniki Zviad Xarazişvili (Xareba), Gürcüstan Daxili İşlər Nazirliyinin Tbilisi Polis İdarəsinin direktoru, polis polkovniki Sulxan Tamazaşvili, Gürcüstan Daxili İşlər Nazirliyinin Patrul Polisi Departamentinin direktoru, polis polkovniki Vaja Siradze də var.



# TBİLİSİDƏ YENİ HAVA LİMANI TİKİLƏCƏK



***Gələn il Tbilisidə yeni hava limanın tikintisinə başlanılacaq.*** Bu barədə Baş nazir İrakli Kobaxidze brifinqdə deyib. Onun sözlərinə görə, Tbilisi hava limanının illik sərnişin tutumu 4 milyon nəfərdir və bu sayı artırmaq mümkün deyil: *"Turizm sahəsindəki artım nəzərə alınaraq yeni infrastrukturun yaradılması vacibdir. Yeni hava limanının tikintisi məhz bu məqsədi güdür. Vaziani ərazisində yeni aeroportun inşası nəzərdə tutulub və tərəfdaşlarla müqavilə bağlanması üçün işlər sürətlə davam edir".* Kobaxidzenin sözlərinə görə 2029-cu ilə qədər layihənin birinci mərhələsinin başa çatdırılması planlaşdırılır: *"Yeni hava limanı açıldıqdan sonra illik sərnişin tutumu 18 milyon nəfərə çatacaq. Bu, yalnız Tbilisinin deyil, Gürcüstanın inkişafına və iqtisadi potensialının artırılmasına xidmət edəcək irimiqyaslı bir layihədir"*, - deyə baş nazir qeyd edib.

# RUSİYA ÖTƏN İL GÜRCÜSTANDAN REKORD MƏBLƏĞDƏ ŞƏRAB İDXAL EDİB

***2024-cü ildə Gürcüstan Rusiyaya 182,6 milyon ABŞ dolları dəyərində şərab ixrac edib ki, bu da ikitərəfli ticarətdə yeni rekord olub.*** Bu, yerli statistika xidmətinin məlumatlarının təhlilindən məlum olub. Ötən il Rusiya Gürcüstandan şərab idxalına çəkdiyi xərci 8,5 % artırıb. İllik idxalın həcmi 66,7 min ton təşkil edib. Bu, əvvəlki illə müqayisədə 7 % çox olsa da, 2022-ci ilin təxminən 70 min tonluq tarixi maksimumuna hələ çatmayıb. Rusiya on ildən çoxdur ki, gürcü şərabının əsas alıcısı olaraq qalır – keçən il Gürcüstan ixracatının üçdə ikisi məhz Rusiyanın payına düşüb. İkinci yeri Polşa tutub, bu ölkə gürcü şərabının idxalını 10,3 % artıraraq 16,6 milyon dollara çatdırıb. İlk üçlüyü Ukrayna tamamlayır, il ərzində idxalını 14 % azaldaraq 12,5 milyon dollara endirib. İlk beşliyə həmçinin Qazaxıstan (10,7 milyon dollar) və Çin (9,2 milyon) daxildir. Ümumilikdə, Gürcüstan keçən il xaricə 94,7 min ton şərab ixrac edib (əvvəlki il 89,5 min ton) – bu, ölkənin müasir tarixində ikinci ən yüksək göstərici olub. İxracatın dəyəri təxminən 276 milyon dollar təşkil edib ki, bu da əvvəlki illə müqayisədə 6,5 % çoxdur.



# DÖVLƏT TƏRƏFİNDƏN GMİ-yə MİLYONLARLA LARİ VƏSAİT AYRILIB



***Gürcüstanda mövcud olan dini icmalara totalitar Sovet İttifaqı rejimi tərəfindən vurulan zərərin bir qisminin ödənilməsi məqsədilə 2025-ci il dövlət büdcəsindən 6 milyon 500 min lari vəsait ayrılıb.***

Bu barədə Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi məlumat verib.

*"Gürcüstan Hökumətinin 27 yanvar 2014-cü il tarixli N117 saylı qərarına əsasən, Din Məsələləri üzrə Dövlət Agentliyinə Sovet totalitar rejimi dövründə vurulan ziyanın qismən ödənilməsi üçün ayrılmış vəsaitin Gürcüstanda mövcud olan dini icmalara bölüşdürülməsi barədə qərar qəbul etmək tapşırılmışdır.*

*Dini birliklərlə aparılan məsləhətləşmələr və faktiki vəziyyətin (icma üzvlərinin, dini şəxslərin, dini obyektlərin sayı) öyrənilməsi əsasında agentlik 2025-ci ilin 24 yanvarında Gürcüstanın baş nazirinə N1/19 nömrəli tövsiyə təqdim etmişdir. Bu tövsiyəyə əsasən, Gürcüstan qanununa uyğun olaraq "Gürcüstanın 2025-ci il Dövlət Büdcəsi haqqında" sənəddə dini birliklər üçün Sovet totalitar rejimi dövründə vurulan ziyanın qismən ödənilməsi məqsədilə ayrılmış 6 500 000.0 (altı milyon beş yüz min) lari cari il üçün dini icmalar arasında aşağıdakı şəkildə bölüşdürülüb:*

*a) Gürcüstan Müsəlman İcması– 4 150 000. 0 ( dörd milyon yüz əlli min) lari;*

*b)Gürcüstanın Erməni Həvari Xristian İcması – 1 100 000 (bir milyon yüz min) lari;*

*c)Gürcüstanın Roma-Katolik Xristian İcması – 700 000 (yeddi yüz min) lari;*

*d)Gürcüstan Yəhudi İcması – 550 000 (beş yüz əlli min) lari"*, - deyə məlumatda qeyd olunub.

Məlumat üçün bildirək ki, 2024-cü ildə dini icmalarının maliyyələşdirilməsi üçün ayrılmış vəsait də 6 milyon 500 min lari təşkil edib.

# KİV: "MİLYONLARLA GÜRCÜSTAN VƏTƏNDAŞININ ŞƏXSİ MƏLUMATLARI İNTERNETƏ SIZDIRILIB"

***Milyonlarla Gürcüstan vətəndaşının şəxsi məlumatları internetə sızdırılıb.***

Bu barədə "Cybernews" nəşri məlumat yayıb.

Bildirilib ki, Alman bulud xidməti təminatçısı (Cloud Service Provider) yanlışlıqla Gürcüstanın demək olar ki, bütün əhalisinin şəxsi məlumatlarını əlçatan edib.

Məlumat bazası kibertəhlükəsizlik konsaltinq platforması "SecurityDiscovery" tərəfindən aşkar edilib.

Şirkətin kibertəhlükəsizlik eksperti Bob Diaçenkonun sözlərinə görə, bu yaxınlarda onlar Gürcüstan vətəndaşlarının şəxsi məlumatlarını özündə əks etdirən və parolla qorunmayan məlumat bazası aşkar ediblər. Sızdırılan indekslərdən birində 5 milyona yaxın şəxsin şəxsi məlumatları, digərində isə 7 milyondan çox telefon qeydləri ilə bağlı şəxsi məlumatlar olub. Bazada insanların identifikasiya nömrəsi, tam adı və soyadı, doğum tarixi, cins, və digər önəmli məlumatların, telefon nömrələri sahiblərinin məlumatları əks olunub. Bildirilib ki, məlumatlarda ölən şəxslərə dair qeydlərin də yer almaq ehtimalı var.

Nəşrin məlumatına görə, təhlükəsizlik boşluğunun aşkarlanmasından sonra server oflayn vəziyyətə salınıb və dərc edilmiş məlumatlara ictimai giriş bağlanıb.

Qeyd olunub ki, şəxsi məlumatların və telefon nömrələrinin potensial olaraq zərərli şəxslərin əlində olması, saxtakarlıq və ya təsir kampaniyaları üçün istifadə edilməsi ehtimalı var.

## Sitat guşəsi



"Münasibətlərdəki çətinliklərə baxmayaraq, biz Avropa İttifaqı ilə əməkdaşlığı davam etdirəcəyik və bunun daha bir təzahürü ondan ibarətdir ki, biz bütün öhdəliklərimizi, o cümlədən müvafiq sənədin Avropa Komissiyasına təqdim edilməsi ilə bağlı öhdəliklərimizdən birini yerinə yetiririk. Bu, iqtisadi islahat planıdır, üç ili - 2025, 2026 və 2027-ci illəri əhatə edir. Biz məsələlərə dair aydın baxışımızı Avropa Komissiyasına təqdim etmişik. Biz, təbii ki, Gürcüstanın Avropaya inteqrasiyası ilə bağlı öhdəliklərinə sadiq qalırıq"..

**İrakli Kobaxidze,**
**Gürcüstanın Baş naziri.**



"Brüsseldəki bürokratların və Soros şəbəkəsinin Gürcüstan hökumətinə hücumlarını dayandırmağın vaxtı çatıb.

Budapeştdə parlamentin spikeri Şalva Papuaşvili ilə görüşdən sonra Orban X-hesabında yazıb: "Mən parlamentin sədri Papuaşviliyə Gürcüstanın suverenliyi uğrunda apardıqları mübarizədə dəstəyimi bildirdim".

***Viktor Orban,***
***Macarıstanın Baş naziri.***



"Qırx ildir ölkəmizin qanını içən terror xəstəliyinə qarşı mübarizəmiz davam edir. Bu ölkənin gənclərini aldadaraq və zorla dağa qaçıran terror baronları üçün yolun sonu göründü. Terrorsuz Türkiyə hədəfimizə addım-addım yaxınlaşırıq. İşıqlı gələcəyimizi birlikdə quracağıq".

***Rəcəb Tayyib Ərdoğan,***
***Türkiyənin Prezidenti***



"Biz 2030-cu ilə qədər bərpa oluna bilən enerjidən istifadəni üç dəfə, enerji səmərəliliyini isə iki dəfə artıracağımızı bəyan etmişik. Görünən odur ki, "təmiz" enerjiyə keçid artıq baş verməkdədir və o uzun müddət qalacaq. Bu təkcə planetimiz üçün yaxşı xəbər deyil . Bu həm də innovasiyalar üçün yaxşı xəbərdir. Bu enerji müstəqilliyi üçün də yaxşı xəbərdir, çünki bu – yerli enerjidir. O bizim evimizdə yaxşı iş yerləri yaradır".

***Ursula fon der Lyayen,***
***Avropa Komissiyasının prezidenti.***



"Mənim fikrimcə, Qrenlandiyaya indi olduğu kimi, təkcə ABŞ-nin yox, Avropa İttifaqının da qoşunlarının yerləşdirilməsinin mümkünlüyünü nəzərdən keçirmək məntiqə uyğundur. Bu güclü bir siqnal olardı və regiondakı sabitliyə töhfə verərdi".

***Robert Briger,***
***Avropa İttifaqının hərbi Komitəsinin rəhbəri,***



"Kolumbiya və yerdə qalan bütün ölkələrin xəbəri olsun ki, Konqres ABŞ-də qanunsuz yolla yaşayan vətəndaşlarını qəbul etməklə bağlı tələbləri yerinə yetirməyə və bu istiqamətdə tam əməkdaşlıqdan imtina edən ölkələrə qarşı sanksiyaları və digər ölçüləri təsdiqləməyə tam hazırdır".

***Mayk Conson,***
***ABŞ Konqresinin nümayəndələr palatasının spikeri.***

## REGİON XƏBƏRLƏRİ

### Marneuli: " KƏNDƏ DƏSTƏK" PROQRAMI İLƏ BAĞLI İŞGÜZAR GÖRÜŞ KEÇİRİLİB



***Marneuli Bələdiyyəsi merinin birinci müavini Roin Dekanoidze 2025-ci il "Kəndə Dəstək"Proqramı ilə bağlı işçi qrupun üzvləri ilə görüş keçirib.***

Görüşdə, "Kəndə Dəstək" Proqramı çərçivəsində həyata keçiriləcək hazırlıq işləri və tədbirlər planı müzakirə edilib.

Marneuli Bələdiyyəsinin meri Kənan Ömərovun sərəncamı əsasında proqram çərçivəsində, ümumi yığıncaqların və məsləhətləşmələrin keçirilməsi, eləcə də maliyyələşdiriləcək layihələrin seçilməsi üçün işçi qruplar yaradılıb.

Qeyd edək ki, 2025-ci il 10 fevral tarixindən etibarən Marneuli Bələdiyyəsində kənd yığıncaqları başlayacaq. Bələdiyyənin əhalisi prosesdə iştirak edərək yaşayış məntəqələrinə uyğun olaraq maliyyələşdiriləcək layihələri müəyyənləşdirəcək.

Gürcüstanın Regionlarda həyata keçiriləcək Layihələr Fondundan Marneuli Bələdiyyəsinə, 2025-ci ildə "Kəndə Dəstək" Proqramı üçün 1 232 000.0 lari ayrılıb.

### Rustavi: RƏSSAM CEMAL KUXALAŞVİLİNİN ƏSƏRLƏRİNDƏN İBARƏT FƏRDİ SƏRGİ AÇILIB



***Otar Çxartişvili adına yeni İncəsənət Qalereyasında rəssam Cemal Kuxalaşvilinin əsərlərindən ibarət fərdi sərgi açılıb.***

"Qızıl əllər" adlanan sərgiyə 30-a qədər əsər daxildir.

Rəssamın əsərləri Gürcüstan İncəsənət Muzeyində, Mədəniyyət Nazirliyinin fondlarında, Tretyakov Qalereyasında, dünyanın müxtəlif ölkələrinin şəxsi kolleksiyalarında mühafizə olunur.

Otar Çxartişvili Rustavi İncəsənət Qalereyasında bir ay müddətində Cemal Kuxalaşvilinin fərdi sərgisi keçiriləcək.

Rustavidəki rəsm qalereyası 23 oktyabr 2024-cü ildə açılıb. Rəssamlar bir neçə onilliklərdir ki, Rustavidə rəsm qalereyasının olmasını tələb edirdilər. İndi Otar Çxartişvili İncəsənət Qalereyası Tələbə və Gənclər Mərkəzinin yeni binasında yerləşir.

### Telavi: DÖVLƏT MÜVƏKKİLİ QİORQİ ALADAŞVİLİ İŞGÜZAR GÖRÜŞ KEÇİRİB



***Qiorqi Aladaşvili Kaxeti reqionunun bələdiyyə sədrləri ilə növbəti işgüzar görüş keçirib.***

İclasda aşağıdakı məsələlər müzakirə edilib:

***-2025-ci ildə planlaşdırılan və icra olunan infrastruktur layihələri;***

***-"Kəndə Dəstək" proqramı və bütün regionda kənd sakinləri ilə görüşlər;***

***-Sosial-iqtisadi istiqamət.***

Kaxeti bölgəsi üzrə dövlət müvəkkilinin inzibati binasında keçirilən işçi görüşdə müvəkkilin müavinləri Platon Kalmaxelidze, Qivi Metreveli, Levan Liluaşvili və yerli özünüidarəetmə orqanları ilə əlaqələr xidmətinin rəhbəri Arçil Txlaşidze iştirak ediblər.

### Saqareco: TƏHSİL MÜƏSSİSƏLƏRİ ÜÇÜN ÖYRƏDİCİ OYUNCAQLAR ALINIB

***Saqareco Bələdiyyəsinin meri Avtandil Qulikaşvilinin təşəbbüsü ilə bütün təhsil müəssisələri uşaqların idrak və yaradıcılıq bacarıqlarının inkişafı üçün zəruri olan metodik vasitələrlə təmin edilib.***

Avtandil Qulikaşvili uşaq bağçası assosiasiyasının nümayəndələri ilə birlikdə uşaqlara oyuncaqları şəxsən təhvil verib və onların ehtiyaclarını müəyyən etmək üçün bağçanın müəllimləri ilə söhbət edib. *"Əsas məqsədimiz uşaqlara sağlam mühitin və məktəbə hazırlıq üçün zəruri olan bacarıqların inkişaf etdirilməsi məqsədilə öyrənmə və təhsil məkanı yaratmaqdır. Bunun üçün oyuncaqlar və tədris ləvazimatları seçilib. Son vaxtlar bir neçə uşaq bağçası binası tikilib, təmir - bərpa işləri görülüb və reabilitasiya olunub və biz bu istiqamətdə fəal işi davam etdirəcəyik."* – deyə Avtandil Qulikaşvili qeyd edib.



## BEYNƏLXALQ HƏYAT

### TRAMPDAN FƏRMAN-ABŞ "DƏMİR QÜBBƏ" YARADIR



***ABŞ Prezidenti Donald Tramp müdafiə naziri Pit Heqsetə 60 gün ərzində "Dəmir qübbə" ən yeni raketdən müdafiə sisteminin layihəsi və yerləşdirilməsi planını təqdim etməyi tapşırıb.***

Bu barədə Ağ Evin mətbuat xidmətinin bazar ertəsi dərc etdiyi fərmanda deyilir.

*"Ballistik, hipersəs və qanadlı raketlər, eləcə də digər müasir hava hücumu təhlükəsi vasitələri ABŞ-nin üzləşdiyi ən fəlakətli təhdid olaraq qalır"*,- deyə sənəddə qeyd olunub.

Sənəd Floridadan Merilend ştatına uçuş zamanı imzalanıb.

Yanvarın 20-də andiçmə mərasimində Tramp bildirmişdi ki, qeyd olunan sistem ölkə daxilində istehsal olunacaq.

*"Mən hərbiçilərimizə tam şəkildə ABŞ-də istehsal olunacaq böyük "Dəmir qübbə" raketdən müdafiə qalxanının hazırlanmasına başlamaq əmrini verəcəyəm"*, – deyə o bildirib.

Bildirilib ki, fərmanın dərc edildiyi andan 60 gün ərzində müdafiə naziri Prezidentə yeni nəsil raketdən müdafiə qalxanının layihəsini və yaradılması planını təqdim etməlidir.

### FİNLANDİYADA SƏNAYE VƏ NƏQLİYYAT İŞÇİLƏRİ TƏTİL EDİR

***Finlandiyanın bir sıra həmkarlar ittifaqları sənaye və nəqliyyat sektorunda çalışan işçilərin tətilə başladığını elan ediblər.***

Bu barədə "Yle" məlumat yayıb.

Məlumata görə, etirazlara səbəb işçilərin iş şəraitindən narazılığı olub. Tətildə UPM, "Metso", "Nokia", "Orion", ABB, "Kone" kimi iri şirkətlərin əməkdaşları, həmçinin "Finnair" aviaşirkətinin pilotları iştirak edəcəklər. Qeyd olunur ki, tətil dalğası fevralın 14-dək davam edəcək.

Xatırladaq ki, 2024-cü ilin mayında Finlandiya parlamenti hökumətin siyasi tətillərin məhdudlaşdırılması təklifini təsdiqləyib. Sənədə əsasən, ölkədə siyasi tətil 24 saatdan, digər tətillər isə iki həftədən çox davam edə bilməz. Bu qanun 2023-cü ilin iyun ayının sonunda vəzifəsinin icrasına başlayan Baş nazir Petteri Orponun hökumət proqramının əsaslarından biri idi. Tətillərin formatına qoyulan məhdudiyyətlər həmkarlar ittifaqlarının aylardır davam edən etirazlarına səbəb olub və Finlandiya iqtisadiyyatı bundan böyük itkilər alıb.



### KOLUMBİYA ABŞ-dən DEPORTASİYA EDİLƏN VƏTƏNDAŞLARIN QAYITMASI ÜÇÜN TƏYYARƏLƏR AYIRIB

***Kolumbiya aviasiyası yanvarın 28-də ABŞ-nin deportasiya etdiyi respublika vətəndaşlarını vətənə daşıyacaq.***

Bu barədə Kolumbiya Prezidenti Qustavo Petro sosial şəbəkədə bildirib.

*"Həmvətənlərimiz səhər saatlarında Kolumbiya ərazisinə çatacaqlar. Onları aviasiyamız gətirəcək, qandalsız gələcəklər. Bu yanaşma – deportasiya edilənlərin ləyaqətinə hörmət – Kolumbiya vətəndaşlarını deportasiya edən bütün ölkələrə tətbiq ediləcək"*, – deyə Petro əlavə edib.

Xatırladaq ki, yanvarın 26-da Petro deportasiya edilən kolumbiyalıları daşıyan Amerika təyyarələrinin respublika ərazisində enmələrini qadağan etmək barədə sərəncam verib. ABŞ Prezidenti Donald Tramp buna görə Kolumbiyadan idxal olunan mal və xidmətlərə 25 % gömrük rüsumu tətbiq edəcəyi ilə hədələmişdi. Kolumbiya lideri cavab rüsumları tətbiq etmək barədə sərəncam vermişdi.

Həmin gün sonra Kolumbiyanın XİN ABŞ ilə münasibətlərdə yaranmış dalana girmiş vəziyyətin həll edildiyini bildirdi. Respublika *"deportasiya vəziyyətində qayıdan və hüquq subyekti kimi onlara layiqli şərait təmin edən"* öz vətəndaşlarını qəbul etməyə hazırdır.



### ZELENSKİ: ABŞ UKRAYNAYA YARDIMI DAYANDIRMAYIB

***ABŞ, dəstəyin dayandırılması barədə məlumatlara baxmayaraq, Ukraynaya hərbi yardımı dayandırmayıb.***

Bu fikri Ukrayna lideri Volodimer Zelenski Moldova Prezidenti Maya Sandu ilə birgə mətbuat konfransında bildirib.

*"Bilirəm ki, bütün dünyada ABŞ hökuməti tərəfindən dəstəklənən çoxlu sayda qurumlar var. Mən yalnız Ukraynanın ala bilməyəcəyi şeylər barədə danışa bilərəm. Mən hərbi yardıma fokuslanmışam. O, dayandırılmayıb"*, – deyə Zelenski söyləyib.

Qeyd edək ki, yanvarın 25-nə keçən gecə "Politico" qəzeti xəbər vermişdi ki, ABŞ dövlət katibi Marko Rubio bütün xarici yardım proqramlarının maliyyələşdirilməsini 90 gün müddətinə dərhal dayandırmaq barədə sərəncam verib. Daha sonra "Reuters" məlumat vermişdi ki, ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyi (USAID) Ukraynaya yardımla bağlı layihələri dayandırıb.



# DİLİMİZİ DAHA YAXŞI ÖYRƏNƏK!

*(Əvvəli ötən sayımızda)*




Qəzetimizin 2 aprel 2021-ci il tarixli 23-24 saylı buraxlışında "Hörmətli oxucular!" sərlövhəli yazının davamı olaraq Azərbaycan dilinin zənginliyini, şirinliyini duymaq, bilmək, onu təbliğ etmək və geniş oxucu kütləsini maarifləndirmək üçün gündəlik danışıq vaxtı işlədilən və az işlədilən sözlərin mənaca təhlilinin oxuculara təqdimatını davam etdiririk:

**GÖZBAĞLAYICI** *is.*1. Xüsusi cihaz və ya hərəkətlərin köməyilə tamaşaçıların gözünü yayındıraraq müxtəlif fokuslar (nömrələr) göstərən sirk artisti.

2. *məc.* Başa düşülməyən, üstüörtülü, anlaşılmayan iş, müəmma. *Onun işi lap gözbağlayıcıdır.*

**GÖZBAĞLAYICILIQ** *is.*1. Gözbağlayıcı artistin işi, peşəsi.

2. məc. Fırıldaqçılıq, adam aldatma, fırıldaq. *Gözbağlayıcılıqla məşğul olmaq.*

**GÖZBƏGÖZ** *zərf* Gözünün içinə baxaraq, üzbəüz, qarşı-qarşıya. *Gözbəgöz oturub danışmaq.* [Gültəkin:] *Üç aydır ki, dik gözbəgöz* [Aydının] *üzünə baxa bilməmişəm*.

C. Cabbarlı.

**GÖZCÜK** *is.* 1. Kiçik göz. *Qarışqanın gözcükləri.*

2. İçəriyə və ya bayıra baxmaq üçün qapıda qoyulan xırdaca deşik; gözlük. *Qapıda balaca bir gözcük də vardı ki, qapı döyüləndə bu gözcükdən baxıb, gələn adamın üzünü görmək mümkün olurdu.*

Ə. Əbülhəsən.

3. Tumurcuq. *Gözcüklər yaxşı inkişaf edir. – Çay bitkisini çoxaltmaq üçün 3-4 gözcüyü olan birillik çubuqlardan istifadə etmək lazımdır.*

B. Talıblı.

4. Gözə oxşar (dairəvi) şəkildə olan tumurcuq və s. *Kartof yumruları üzərində çuxurcuqlar olur ki, buna gözlüklər deyilir.*

M. Qasımov.

**GÖZCÜKLÜ** *sif.* Gözcüyü olan; gözlüklü. *Gözcüklü qapı.*

**GÖZÇIXARAN** *sif.* Gözlərə kəskin təsir edən, gözü acışdıran. *Gözçıxaran tüstü. – Bakının dəhşətli gözçıxaran tozanağı hamıya məlumdur.*

H. Sarabski.

**GÖZƏ** *is. məh.* Sulu, nəmiş otluq, yaşıllıq yer, rütubət çəmənlik.

*Əziziyəm gözədə;*
*Quzu otlar gözədə;*
*Qurban olum sənə də;*
*Sənə baxan gözə də.*

(Bayatı).

**GÖZƏDƏYƏN** *sif.* Nəzərə çarpan, diqqəti cəlb edən, yaxşı xüsusiyyəti ilə başqalarından fərqlənən, seçilən, ayrılan. *Gözədəyən şey. – Burda gözədəyən hər şey otaq sahibinin işgüzar bir adam olduğunu göstərirdi.*

M. Hüseyn.

**GÖZƏDƏYMƏZ** *is.* Nəzərə çarpmayan, diqqət cəlb etməyən. *Kəndin gözədəyməz yeri.–Tahirzadə məc-lisin gözədəyməz bir yerində dayanıb müəllimlərlə söhbət edirdi.*

Mir Cəlal.

**GÖZƏGƏLƏN** *is.* Gözə xoş gələn; gözəgəlimli. *Gözəgələn ev.–* [Rübabə] *ucaboy, alagöz, qarasaç, gərdənli, gülərüzlü, bir sözlə, gözəgələn bir qız idi.*

Mir Cəlal.

**GÖZƏGƏLİMLİLİK** *is.* Gözə xoş gələn, gözoxşayan şeyin hal və keyfiyyəti.

**GÖZƏGÖRÜNMƏZ** *sif.*1. Gözlə görülə bilməyən; gizlənmiş, görünməyən. [Pərişan atasına:] *Yox, o adət arvadı gözəgörünməz bir çadra altında çürüdür.*

M. İbrahimov.

2. Həqiqətdə mövcud olmayan, xəyali qüvvə.

*Gözümə neyləsin gözəgörünməz,*
*Canımın ağrıya qalmayıb tabı.*

H. Arif.

**GÖZƏGÖRÜNMƏZLİK** *is.* Gözə görünməmə, gözlə görünməsi mümkün olmama, mövcud olmama; xəyalilik.

**GÖZƏK** *is. məh.* 1. Bağ, ip. Atı gözəklə hörükləmək. Çuvalın gözəyini bağlamaq. Məfrəşin gözəyi.

2. Toxunma şeyin yırtılmış, çürümüş və ya yanmış yerini yenidən toxumaqla salınan yamaq.

**GÖZƏKLİ** sif. Gözəyi olan, toxunma yamağı olan: yamaqlı. *Gözəkli xalça.*

**GÖZƏL** *sif.* 1. Sifətinin cizgiləri, bədəninin tənasübü, qaş-gözü qüsursuz olan; göyçək. *Gözəl uşaq.* [Xor:]

*Xəlvət meşə arasında,*
*Bir gözəl qız tapmışıq.*

C. Cabbarlı.

**Dünya gözəli** – çox gözəl, çox qəşəng qadın (çox zaman istehza və ya zarafatla işlədilir).

[Müqim bəy:] *Sənin kimi dünya gözəli olanın bu dünyada nə dərdi-qəmi, ay Zəriş!*

S. Rəhimov.

**Gözəllər gözəli** – qeyri-adi gözəlliyi ilə fərqlənən, ən gözəl qız, qadın.

// *İs. mənasında.* Sifətinin cizgiləri, bədəninin tənasübü, qaş-gözü qüsursuz olan gənc qız.

*Bu gün bir əcayib gözəl sevmişəm,*
*Beləsi olammaz heç vilayətdə.*

M. P. Vaqif.

**Gözəlim** şəklində gözələ xitab.

*Bu yazıq yarına hardən,*
*Bir nəzər sal, gözəlim!*

Ü. Hacıbəyov.

**2. Gözə xoş gələn,** gözü oxşayan, xoşa gələn, qəşəng. *Gözəl bağ. Gözəl mənzərə.*

*Hanı rəngin çiçəklərin, a çəmən!*
*Bir gözəl dəstə gül tutaydım mən.*

A. Şaiq.

*Burda məclis quraq, gözəl çəməndir;*
*Hər tərəf nərgizdir, tər yasəməndir.*

M.Rahim.

// İnsanın ruhunu oxşayan, ruhuna ləzzət verən, xoşa gələn. *Gözəl səs. Gözəl avaz ilə oxumaq. Hava gözəl və işıq idi.*

Qantəmir.

*Faytonçunun səmimi, yanıqlı bir səslə oxuduğu gözəl mahnı birdən xırp kəsildi.*

M. Hüseyn.

*...Bülbül öz gözəl nağməsini oxumaqda idi.*

M. Rzaquluzadə.

// Estetik zövq verən.

3. Məharətli, öz sənətinin ustası olan, çox yaxşı, əla. *Gözəl usta. Kərim baba özünü bir də doğruldaraq: – Mənim atam da gözəl ovçu idi,* – dedi.

A. Şaiq.

**(Davamı var)**

**Hazırladı: Xaləddin Yolçuyev.**

# DÖVLƏT DİLİNİ ÖYRƏNMƏLİYİK!

***Hörmətli oxucular!***



Gürcüstanda yaşayan etnik azlıqların dövlətçiliyin əsaslarının möhkəmləndirilməsi, ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməsi, cəmiyyətə inteqrasiya olunmaqla onun tamhüquqlu vətəndaşı olması üçün gürcü dilini və tarixini bilmələri vətəndaşlıq borcudur. Dövlətin "Vətəndaş Bərabərliyi və İnteqrasiya üzrə 2021-2030-cu illər üçün dövlət strateji proqramı"na əsasən Gürcüstanda yaşayan etniklər 2030-cu ilədək gürcü dilini mənimsəməlidirlər. "Gürcüstan" qəzeti də yuxarıda qeyd olunanları nəzərə alaraq, bu mühüm işə öz töhfəsini vermək üçün gürcü dilini öyrənmək istəyənlərə yardım etmək məqsədilə yeni rubrika açıb. Bu rubrika altında siz gürcü dilinin əlifbasından başlayaraq dilin bütün özəllliklərinə bələd olacaqsınız.

## Gürcü əlifbası

**Gürcü əlifbası 33 hərfdən ibarətdir və aşağıdakı ardı ardıcıllıqla düzülür.**

| Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı |
|---|---|---|---|---|---|---|---|---|
| ა | a | ან | მ | m | მან | ღ | ğ | ღან |
| ბ | b | ბან | ნ | n | ნარ | ყ | ğ* | ყარ |
| გ | q | გან | ო | o | ონ | შ | ş | შინ |
| დ | d | დონ | პ | p* | პარ | ჩ | ç | ჩინ |
| ე | e | ენ | ჟ | j | ჟან | ც | ≈ ts* | ცან |
| ვ | v | ვინ | რ | r | რაე | ძ | ≈ dz | ძილ |
| ზ | z | ზენ | ს | s | სან | წ | ≈ ts | წილ |
| თ | t | თან | ტ | t* | ტარ | ჭ | ≈ tç | ჭარ |
| ი | i | ინ | უ | u | უნ | ხ | x | ხან |
| კ | k* | კან | ფ | p | ფარ | ჯ | c | ჯან |
| ლ | l | ლას | ქ | k | ქან | ჰ | h | ჰაე |

**Qeyd: ≈ işarəsi "təxmini tələffüz"ü göstərir.**
*** işarəsi "sərt tələffüz"ü göstərir.**

Gürcü dili əlifbasında 5 sait : ა(a), ე(e), ი (i), (o) ო, უ (u) var, qalanı samit səslərdir. Gürcü dilində 8 spesifik xüsusiyyətli samit isə Azərbaycan dilində yoxdur. Onlar Azərbaycan dilində aşağdakı qaydada tələffüz olunur.

**კ - k*** (sərt tələffüz) **პ - p*** (sərt tələffüz) **ტ - t*** (sərt tələffüz)
**ყ - ğ*** (sərt tələffüz) **ც - ts *** (sərt tələffüz ) **წ ≈ ts** (təxmini tələffüz)
**ჭ ≈ tç** (təxmini tələffüz) **ძ ≈ dz** (təxmini tələffüz)

Azərbaycan dilindən fərqli olaraq, gürcü dilinin orfoqrafiyasında böyük və kiçik hərflər yoxdur. Çap və yazı hərfləri şəkil etibarı ilə eynidir. Oxunduğu kimi də yazılır.

* * *

### ბანკიდან სესხის აღება (Bankidan sesxis ağeba) Bankdan Kredit Götürmək

**თუ გსურთ სესხის აღება საჭიროა იცოდეთ ბანკის ძირითადი პირობები** (Tu qsurt sesxis ağeba satçiroa itsodet bankis dziritadi pirobebi) - **Əgər kredit götürmək istəyirsinizsə bankın əsas şərtlərini bilməlisiniz.**

**პირველ რიგში, საჭიროა სესხის ტიპის განსაზღვრა.** (Pirvel riqşi, satsiroa sesxis tipis qansazğvra) **– İlk növbədə, kreditin növünü müəyyənləşdirmək lazımdır.**

**მაგალითად: სამომხმარებლო სესხი, იპოთეკური სესხი ან ავტოსესხი.** (Maqalitad: samomxmareblo sesxi, ipotekuri sesxi an avtosesxi) **– Məsələn: istehlak krediti, ipoteka krediti və ya avtomobil krediti.**

**ასევე, უნდა გაითვალისწინოთ სესხის ვადა და საპროცენტო განაკვეთი.** (Aseve, unda gaitvaliswinot sesxis vada da saprotsento qanakveti) **– Həmçinin, kreditin müddətini və faiz dərəcəsini nəzərə almalısınız.**

**საპროცენტო განაკვეთი აჩვენებს, რამდენი პროცენტი უნდა გადაიხადოთ აღებული თანხის სანაცვლოდ.** (Saprotsento qanakveti atsvenebs, ramdeni protsenti unda gadaixadot ağebuli Tanxis sanatsvlod) **– Faiz dərəcəsi göstərir ki, götürülən məbləğin əvəzində nə qədər faiz ödəməlisiniz.**

**სესხის აღებამდე, აუცილებელია საკრედიტო ისტორიის გადამოწმება.** (Sesxis ağebamde, autsilebelia sakredito istoriis qadamotsmeba) **– Kredit götürməzdən əvvəl kredit tarixçənizi yoxlamaq vacibdir.**

**ბანკი ხშირად ამოწმებს კლიენტის შემოსავალს და განიხილავს გადახდის უნარს.** (Banki xşirad amotsmebs klientis şemosavals da qanixilavs qadaxdis unars) **– Bank tez-tez müştərinin gəlirini yoxlayır və ödəmə qabiliyyətini nəzərdən keçirir.**

**გადახდის გრაფიკი უნდა დაიცვათ დროულად და სრულად.** (Qadaxdis qrapiki unda daitsvat droulad da srulad) **– Ödəniş cədvəlini vaxtında və tam şəkildə yerinə yetirməlisiniz.**

**თუ სესხის გადახდა გიჭირთ, დროულად უნდა მიმართოთ ბანკს.** (Tu sesxis qadaxda qtçirt, droulad unda mimartot banks) **– Əgər kreditin ödənişində çətinlik çəkirsinizsə, vaxtında banka müraciət etməlisiniz.**

**ბანკი შეიძლება შემოგთავაზოთ გადახდის გადავადების ან რესტრუქტურიზაციის შესაძლებლობა.** (Banki şeidzleba şemoqtavazot qadaxdis qadavadebis an restrukturizatsiis şesadzlebloba) **– Bank sizə ödənişi təxirə salmaq və ya restrukturizasiya etmək imkanı təklif edə bilər.**

**მუდამ ყურადღება მიაქციეთ სესხის პირობებს და კონტრაქტის დეტალებს.** (Mudam ğuradğeba miaktsiet sesxis pirobebs da kontraktis detalebs) **– Həmişə kreditin şərtlərinə və müqavilənin detallarına diqqət yetirin.**

# TEA AXVLEDİANİ QEYRİ-GÜRCÜ DİLLİ "GÜRCÜSTAN" VƏ "VRASTAN" QƏZETLƏRİNİN ƏMƏKDAŞLARI İLƏ GÖRÜŞÜB

***Gürcüstanın Barışıq və Vətəndaş Bərabərliyi məsələləri üzrə Dövlət naziri Tea Axvlediani azərbaycandilli "Gürcüstan" və ermənidilli "Vrastan" qəzetlərinin rəhbərliyi və redaksiya əməkdaşları ilə görüş keçirib.***

Dövlət naziri görüş zamanı vətəndaş bərabərliyi və inteqrasiya üzrə dövlət siyasəti barədə danışıb, Gürcüstanda yaşayan etnik azlıqlar üçün "media və informasiya əlçatanlığının təmin edilməsi" strateji prioritetinin vacibliyini vurğulayıb. Nazir qeyd edib ki, etnik azlıqların sıx məskunlaşdığı bölgələrdə, xüsusilə də yetkin yaşda olan əhalinin bir hissəsinin dövlət dilini bilməsi ilə bağlı mövcud çətinliklər nəzərə alınaraq, onların doğma dilində məlumatlandırılması əsas prioritetdir. Bu, ölkə daxilində və xaricində baş verən siyasi, sosial-iqtisadi, mədəni proseslər və aktual məsələlər, eləcə də mövcud imkanlar haqqında informasiyanın çatdırılmasını əhatə edir. Məhz buna görə də, dövlətin dəstəyi ilə "Vrastan" və "Gürcüstan" qəzetlərinin nəşri davam etdirilir. Bu nəşrlər, eyni zamanda Gürcüstanın mədəni rəngarəngliyinin tanıdılması və populyarlaşdırılmasına xidmət edir, vətəndaş inteqrasiyası prosesinin effektivliyinin artırılmasına və qarşıya qoyulan məqsədlərə nail olunmasına töhfə verir.

Görüş iştirakçılarına dövlət naziri tərəfindən redaksiyaların inkişafına dəstək məqsədilə Dövlət Nazirliyinin təşəbbüsü ilə müstəqil tədqiqat təşkilatı vasitəsilə aparılan araşdırmanın nəticələri və tövsiyələri təqdim olunub. Bu tövsiyələr redaksiyaların gələcək fəaliyyətini daha çox ehtiyaclara uyğunlaşdırmağa kömək edəcək. Görüş interaktiv rejimdə keçib. Öz növbəsində, qəzetlərin redaktorları görülən işlər və gələcək planlar barədə məlumat veriblər.



Dövlət naziri Nazirlik tərəfindən gələcəkdə də dəstək göstərməyə hazır olduqlarını bildirib.

*"Azərbaycandilli "Gürcüstan" və ermənidilli "Vrastan" qəzetlərinin redaksiyaları ilə bugünkü görüş çox faydalı və vacib idi. Xüsusilə də, hazırda biz vətəndaş bərabərliyi və inteqrasiya üzrə dövlət siyasətinin prioritetləri çərçivəsində ikiillik fəaliyyət planımızı hazırlayırıq. Bu tarixi əhəmiyyətə malik iki qəzet isə xüsusilə qeyri-gürcü dilli əhalinin sıx yaşadığı bölgələrdə informasiya əlçatanlığının təmin olunmasında mühüm rol oynayır. Bu gün həyata keçirilmiş fəaliyyətləri qiymətləndirdik, Dövlət Nazirliyinin təşəbbüsü ilə aparılmış genişmiqyaslı müstəqil tədqiqatın nəticələrini nəzərdən keçirdik və onların əsasında redaksiyaların gələcək fəaliyyətinin daha da səmərəli olması üçün yeni yollar müəyyən etdik. Bununla da, ikiillik fəaliyyət planı çərçivəsində, qəzetlər yerli əhali üçün aktual mövzular, dövlət proqramları və imkanlarla bağlı bir növ bələdçi rolunu daha da səmərəli icra edə biləcəklər"* – deyə Dövlət naziri Tea Axvlediani bildirib.

# II İRAKLİ VƏ XUDU BORÇALI

## (TARİXİ POVEST)

***Bütün Gürcüstanda əzəmətli, cəsur olan Xudu Borçalı.***

**Teymuraz Baqrationi**

*(Əvvəli ötən sayımızda)*

-Şahzadə Aleksandre bu axşam bu çay keçidinə gələcək və sən öz kazaklarınla burdan çıx, harasa get, şahzadə sizə sevgi dolu ismarıc göndərib, - dedi. Dimitri Tarxnişvili doğrudan da çay keçidini azad etdi, ordan çıxdı, başqa tərəfə yollandı. Bu keşiş Kürün sağ sahilindən olan, Zebede adlı gürcü imiş...

***

Şahzadə Aleksandre Kaxeti üsyanının məğlubiyyətindən sonra öz əməlləsi ilə, o cümlədən Xudu Borçalı ilə birlikdə Dağıstana keçdi. Bura onun üçün yaxın, çox etibarlı yer idi. Orda onun atasının, eləcə də özünün çox tanışı var idi. Antsuxda onu böyük hörmətlə qəbul etdilər. Ruslara baş əymədiyinə görə. Orada altı il qaldı. Antsux Kaxetiyə yaxındır və Aleksandrenin Kaxet ilə, eləcə də bütün Dağıstan ilə yazışması var idi. Çuğullar onun dalınca düşmüşdülər. Onun hər bir addımını bilirdilər. Çarizm qorxurdu ki, bütün Qafqaz əhalisi ayağa qalxsın və odur ki, bir neçə dəfə Alerksandreni ələ keçirməyə cəhd göstərmişdi. Əvvəlcə elə şahzadənin yanında olan kaxetili Kiteni ələ aldılar, lakin bunun üstü açıldı. Kite ilə ləzgilər haqq- hesab çürütdülər. Onu qaçırdılar, hər iki əlini xəncərlə kəsdilər, sağ gözünü çıxartdılar və beləcə rusların üstünə göndərdilər. Rusiya hökuməti ona yüz manata qədər pensiya təyin etdi.

Sonra şahzadənin keşmiş qulluqçusu Qoqiya Bastamaşvilini ələ aldılar. O, zəhəri birbaşa şahzadəyə verdi: Budur məni, bu zəhərlə səni zəhərləmək üçün göndəriblər. Şahzadə təəccübləndi və soruşdu: Qoqiya, indi mən nə edim? "Tutuqlu halda məni geriyə göndər, qalanını mən bilirəm" – Qoqiya dedi. O, qayıdanda çar məmurlarına dedi ki, məni dama basdılar, az qaldı ki, öldürələr, axır ki, gizlicə qaça bildim. Lakin ona inanmadılar və tüfəngin dəmir lüləsi ilə döydülər, sonra isə xeyli vaxt zindanda saxladılar.

Üçüncü dəfə aznaur Zəkəriyyə Coraşvilini göndərdilər. O da zəhər apardı. O da Qoqiya Bastamaşvili kimi hərəkət etdi. Geri qayıdanda, doğrudur, döymədilər, lakin uzun müddət zindanda saxladılar. Bu Zəkəriyyə də Aleksandrenin keşmiş qulluqçusu idi.

Dördüncü dəfə aznaur İvane Ğorğanaşvilini göndərdilər. Bu kişi hiyləgər və çox məharətli idi. İvane o məqsədlə getdi ki, bilavasitə zəhərləsin, lakin içəriləndilər, zindana saldılar. Ləzgilər onu öldürmək istəyirdilər, lakin çar İraklinin yanında qulluq etmiş Osep Ğorğanaşvilinin oğlu olduğundan şahzadənin özü onu gizlicə aradan çıxardıb rusların hüdudlarına buraxdı.

Şahzadə bir gün Xudunu yanına çağırdı. Məsləhətləşmələr apardı. Burda artıq qalmağa lüzum olmadığını açıqladı. Odur ki, Şahzadə Aleksandre Dağıstandan çıxmaq qərarına gəldi. Günlərin bir günü səhər tezdən yola çıxdılar. Gizli yollarla Kaxetidən keçərək Borçalıya üz tutdular. Rusların əlaltıları olan soydaşlarının qorxusundan Kaxetidə bənd almadılar. Nəhayət, Qırmızı körpü həndəvərlərindən Borçalıya çatdılar. Xudu Borçalının simsarlarının yaşadığı Ağalıq elində duruş gətirdilər. Gecə orada qaldılar. Burada yola azuqə götürərək səhər o başdan atlanaraq Sadaxlıya tərəf yola düşdülər. Gümrüdən keçərək Osmanlıya getmək, sonra oradan da İrana keçmək niyyətində idilər. Bir neçə atlı məmləkətləri keçərək istədikləri mənzilə çatmaq üçün yolu əllərinə almışdılar...

**EPİLOQ**

Hər il sentyabrın 11-də Krtsanisi döyüşündə fədakarcasına həlak olan 300 araqvililinin xatirəsini qeyd edilir. Məhz elə həmin gün 150 nəfər soydaşımız olan borçalıların qəhrəmancasına həlak olmalarını da soydaşlarımız son vaxtlar qeyd etməyə başlamışdır. Odur ki, Krtsanisi memorialı önünə toplaşaraq Krtsanisi qəhrəmanlarını, o cümlədən soydaşlarımız Allahverdini, Ağacanı, eləcə də Aspindza döyüşü qəhrəmanlarını, o cümlədən, soydaşımız Xudu Borçalını, onun məsləkdaşlarını, İranda, Tehrandakı xristin kilsəsinin həyətində dəfn olunan şahzadə Aleksandreni yad edirlər. Onların ruhuna dualar oxuyurlar. Bu ənənənin əsasının qoyulması və daha da inkişaf etdiril-məsi gənc nəslin vətənpərvərlik ru-hunda böyüməsinə və qəhrəmanlıqlar gös-tərən igidlərimizdən örnək götürməsinə vadar edəcəyinə bizdə əminlik hissi yaradır...



**Mirzə Məmmədoğlu,**
**Tədqiqatçı - jurnalist.**

# MUSİQİÇİLƏR AİLƏSİ



Aşıq sənətini yaşadan ustad aşıqlar el-obaları gəzib-dolanır, ifaları, sözsöhbətləri, dastan-qaravəlliləri ilə ədəb-ərkandan, yüksək insani keyfiyyətlərdən, ləyaqət və nəzakətdən, şəxsiyyət və mənlikdən danışar, könüllərdən könüllərə körpü salardılar. El sevgisi, xalq məhəbbəti qazanmış aşıqlar dəvət olduqları sünnət, toy məclislərini uğurla başa vurardılar. Vaxtı ilə bu gözəl ənənəni davam etdirən, saza-sözə dəyər verdirən və ailəsində yaşadanlardab biri də rəhmətlik Hacı Mürşüd oğlu Piriyev olub. O, 1950-ci ildə Marneuli rayonunun Qırıxlı kəndində anadan olub. 1967-ci ildə Qırıxlı orta məktəbini bitirib. 1970-ildən 1972-ci ilədək hərbi xidmətdə olub. Hacı uzun müddət Qullar sovxozunun direktoru Alıbəy Qaracayevin sürücüsü olub. 2020-ci ilin dekabrında vəfat edib. Hacı Piriyev məktəb illərindən başlayaraq saz havalarını zümzümə edər, fışqırıqla çalardı. Həssas qəlbli Hacının gözəl musiqi duyumu vardı. İstedad və bacarığı onu aşıq sənətinə bağlayır. Oğlu Hacının saza, sözə olan həvəs və marağını görən Mürşüd kişi ona cürə saz alır. İlk dəfə sazı sinəsinə basıb dınqıldadan balaca aşığın sevinci yerə-göyə sığmır. Meylini saza salan gənc Hacı simləri saz "dilində danışdırır", "qaydaları" (havaları) alayarımçıq çalıb zümzümə edərdi. Beləliklə, gənc Hacı Piriyev ustada şəyirdlik etmədən sazın sirlərini öyrənib istəyinə nail olur. Sənəti müstəqil öyrənməsi Aşıq Hacının saza-sözə olan sevgisinin nəticəsi idi. Onun sənətdə qazandığı uğur və nailiyyəti oğlu Mahirə və nəvəsi Zahirə sazı sevdirməsi olub.

**XATIRLAMA:** Qonşu Qullar sovxozunun direktoru, rəhmətlik Alıbəy Qaracayev bir yana gedəndə, iclas və tədbirlərə çağrılanda sürücüsü Hacıya deyərdi: "Aşıq, bir-iki ağız oxu, könlümüz açılsın, kefimiz durulsun". Hacı da diqqətini yayındırmadan məlahətli səslə oxuyardı. Alıbəy də xeyir-duasından qalmayıb "gözəl səsin, şaqraq zəngulən olduğu halda niyə məclislərə getmirsən"? deyərdi. Hacı da "sənəti özüm, ailəm üçün öyrənmişəm" cavabını verərdi. Hacı Piriyev aşıq sənətini öyrənməklə yanaşı, qara zurnanın da mahir ifaçısı idi. O, dəstəsinin üzvləri dəmkeş Qulamhüseyn və dəfçi Bəkirlə birlikdə el toylarını çalmış, qızlar köçürmüş, gəlinlər gətirmişdi. Aşıq-zurnaçı Hacı Piriyev sadəliyi və təvazökarlığı, səmimiyyəti və mehribanlığı, insanpərvərliyi ilə seçilən sənətkar idi. Allah rəhmət eləsin! Məkanı cənnət, ruhu şad olsun! İndi Ailənin aşıqlıq ənənəsini Hacının oğlu Mahir Piriyev davam etdirir. Mahir 16 fevral 1973-cü ildə Qırıxlı kəndində anadan olub.Atasının təkidi və özünün istəyi ilə1985-ci ildə Qırıxlı orta məktəbinin 5-ci sinfindən çıxıb Bakıda Asəf Zeynallı adına musiqi məktəbinin Suraxanıdakı filialına qəbul olunur və 1991-ci ildə həmin məktəbi "Qırmızı diplomla" bitirir. Suraxanı mədəniyyət evinin nəzdində fəaliyyət göstərən "Elşən" uşaq ansamblında 4 il saz ifa edir. Ansambl Azərbaycanın bir çox bölgələrində dövlət tədbirlərində iştirak edib. 1991-1993-cü illərdə qonşu Qullar atçılıq sovxozunun mədəniyyət evində saz müəllimi işləyən Mahir sazın "əlifbasını" atası Aşıq Hacıdan öyrənib. O da, atası aşıq-zurnaçı Hacı kimi sənət aləmində bir çox "musiqiçilərdən" fərqli olaraq şöhrəti, özünü "gözə soxmağı" sevməyən, ad-san qazanmaq naminə kiməsə də "ağız açmağı" xoşlamır. Müasir el şənlik və toylarının "tələbinə" görə Mahir də saz və elektrogitarada məharətlə ifa edir. Biz bu fani dünyanın müvəqqəti sakinləri özümüzdən sonra iz qoymağı, tarix yazmağı, ata yolunun, soykökü, ailə ənənələrini yaşatmağa qadir xalqıq. Bu mənada saz-gitara ustası Mahir bəy də ata sənətini oğlu Zahir Piriyevdən əsirgəməyib. İndi Zahir baba-ata yolunu davam etdirib müqəddəs saz sənətini yaşatmağı özünə borc bilir. Zahir də, artıq bir neçə havanı özünəməxsus məharətlə ifa edir. Sənət yolunu davam etdirən, müqəddəs saza can verib yaşadan, təbliğ edən, gələcək nəsillərə yetirən Mahir və Zahir ata-balaya uğur və nailiyyətlər arzulayırıq. Hər ikisinə Allah-Taala yar və yardımçı olsun.



**Əlixan Yəhyaoğlu,**
**Şair, publisist.**

# TENGİZ ABULADZE: TÖVBƏ YOLUNU GÖSTƏRƏN SƏNƏTÇİ

**I. Bəxtimə düşən təsadüf**

...Sonuncudan əvvəlki Ümumittifaq kinosestivalı 1987-ci il mayın 18-25-də Tbilisidə keçirilirdi. Mən də "Sovet Gürcüstanı" (indiki "Gürcüstan") qəzeti ədəbiyyat və incəsənət şöbəsinin əməkdaşı kimi festivala təhkim olunmuşdum, filmlərə baxır, kinematoqrafçılarla görüşlərdən xəbərlər yazır, təəssüratlarımı qeyd eləyirdim.

Mayın 23-də işə çatıb nəfəsimi dərməmiş şöbə müdirimiz unudulmaz Arif Mustafazadə dilləndi:

-Teymuraz müəllimin (redaktor Teymuraz Cəfərli) tapşırığıdı, tez Kinematoqrafçılar İttifaqına get, Eldar Şengelayaya (İttifaqın sədi) zəng vurub, adını yazdırıb. Festival heyətiylə səfərə getməlisən. Cəld ol, on dəqiqəyə yola düşməlidilər.

Tələm-tələsik yığışıb çıxdım. Redaksiyanın yerləşdiyi binayla Kinematoqrafçılar İttifaqının arası cəmi-cümlətanı iki yüz addım olardı, amma mən özümü çatdıranda tini burulub Rustaveli prospektinə çıxan avtobusu gördüm, neyləyəcəyimi bilmədən, çaşqın halda donub qaldım: geri əliboş qayıtmaq məndən ötrü ayıb, taksi saxladıb avtobusu haqlamaq isə gec olardı.

Bir qərara gəlməmişdim ki, İttifaqın qapısından görkəmli rejissor, SSRİ Xalq artisti, Gürcüstan Kinematoqrafçılar İttifaqının katibi, bir neçə gün əvvəl Kann kinofestivalında "Tövbə" filmiylə Qran-Pri qazanmış Tengiz Abuladzenin çıxdığını gördüm. Deyəsən, çaşqınlığımı sezib ayaq saxladı. Bu fürsətdən də istifadə eləmək qərarına gəldim:

- Bağışlayın, badono Tengiz, - dedim, - məni Teymuraz Cəfərli göndərib, kinofestival iştirakçılarının bugünkü səfərindən reportaj hazırlamalıyam, amma deyəsən, gecikdim.

Gürcüstan KP MK-nın üzvü Teymuraz Cəfərlinin adı-soyadı təsirini göstərdi, Tengiz Abuladze gülümsəyib qolumdan yapışdı:

-Teymuraz Mamedoviçin göndərdiyi adamı geri qaytarmaq olmaz. Mən də o tədbirə gedirəm, maşınımızda da yer var. Gedək...

Taleyin üzümə belə gözlənilməz qapı açacağını heç gözləməzdim. Qəlbim həyəcandan əsə-əsə onun göstərdiyi maşına doğru getdim...

**II. Birinci xatırlatma: Yolun başlanğıcında**

Kinoyla təmasım sayəsində Tengiz Abuladzenin yaradıcılığına bələd idim. Bilirdim ki, Kutaisidə doğulub (1924-cü il yanvarın 31-də), dəmiryol texnikumunu bitirib, sonra Şota Rustaveli adına Tbilisi Dövlət Teatr İnstitutuna üz tutub, Georgi Tovstonoqov və Dmitri Aleksidzenin sinfində təhsil alıb, iki il teatrda çalışıb, 1948-ci ildə Dostu Revaz Çxeidzeylə Moskvaya gedib, Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun rejissorluq fakültəsinə daxil olub, əvvəlcə Sergey Eyzenşteyn və Lev Kuleşovun, sonra Aleksandra Xoxlova və Aleksandr Dovjenkonun emalatxanasında təhsil alıb.

Tengiz Abuladze diplom işini görkəmli gürcü musiqiçisi və pedaqoqu Dmitri Alrakşviliyə həsr elədiyi sənədli filmlə diqqət çəkə bilmişdi. "Gürcüstanfilm" kinostudiyasında ilk sərbəst işi də sənədli oldu, "Bizim saray" lenti ilə "böyük kino"nun qapısı açıldı.

1955-ci ildə dostu Revaz Çxeidzeylə Yekaterine Qabaşvilinin "Maqdananın Lurcası" hekayəsi əsasında Karlo Qoqodzenin yazdığı ssenarini ekranlaşdırmağa başlayanda, az qala, bir göz qırpımında məşhurlaşacaqlarını ağıllarına belə gətirmirdilər. Lakin film 1956-cı ildə Kann kinofestivalının qısametraflı filmlər müsabiqəsində "Uydurma süjetli ən yaxşı film" nominasiyası üzrə qalib olanda bu möcüzə baş verdi. Film elə həmin il də Edinburq kinofestivalında fəxri diploma layiq görüldü...

Tengiz Abuladze ikinci filminin mövzusu kimi 1954-cü ildə "Komsomolskaya pravda" qəzetində dərc olunmuş oçerki götürdü, hadisələri Gürcüstana köçürdü, Revaz Caparidzeylə birgə ssenari yazdı, beləliklə də, ilk sərbəst tammetrajlı lentini -"Yad uşaqlar" filmini ortaya çıxardı. Film rejissora 1959-cu ildə Helsinki və London kinofestivallarında diplom, 1960-cı ildə Porretta-Terme (İtaliya) və Tehran kinofestivallarında, sadəcə, priz qazandırsa da, yaradıcılıq kredosunda ciddi dəyişikliyə səbəb oldu.

**III. İkinci xatırlatma: Yeni yol axtarışı**

Tengiz Abuladze kino sənətindəki "İtaliya neorealizmi" adlanan cərəyanla yaxşı tanış idi, xüsusilə Mikelancelo Antonioni və Federiko Fellininin filmlərini sevir, gürcü kinosunda da belə bir, lakin milli cizgilərini qoruyub saxlayan cərəyanın yaranmasını arzulayırdı, bu yönümdə də sənətdaşı Otar İoselianiylə həmfikir idi. O, faciəvi, amma bənzərsiz sənətçi həyatı yaşamış Niko Pirosmani haqqında film çəkmək, baş rola Serqo Zakariadzeni dəvət eləmək istəyir, amma bu layihəsi daim Dövlət Kinematoqrafiya Komitəsinin keçilməz divarlarıyla üzləşirdi.

Tengiz Abuladze mübarizə apara-apara yaradıcılıq kredosunu mümkün yollarla gerçəkləşdirmək qərarına gəldi, ilk addım kimi də Nodar Dumbadzenin çox sevilən "Mən, nənəm, İliko və İllarion" povestini seçdi. Xalq müdrikliyiylə yumorun heyrətamiz sintezindən ibarət olan bu "qüssəli komediya"nı tənqid də, tamaşaçılar da yaxşı qarşıladı, film hətta Bratislava kinofestivalında I dərəcəli diploma belə layiq görüldü.

Tengiz Abuladze isə artıq növbəti filminə, əsl yaradıcılıq kredosunu gerçəkləşdirmək üçün hazırlaşmağa başlamışdı. O, bu dəfə böyük gürcü yazıçısı Vaja Pşavelanın yaradıcılığına ("Aluda Ketelauri", "Qonaq və ev sahibi" poemalarına) müraciət elədi, kist və xevsurlar arasındakı qan düşmənliyi mövzusuna Xeyir və Şər arasındakı mübarizə motivləri əlavə elədi, beləliklə də, ona dünya şöhrəti gətirən trilogiyanın "Dua" adlı ilk filmi yarandı.

Amma rejissorun gürcüsayağı neorealizmi rəsmi dairələrdə narazılıq doğurdu, bu səbəbdən də film, demək olar, SSRİ-də ekranlara buraxılmadı, tamaşaçıdan gizlədildi, Qərbdə isə zəfər qazandı, 1973-cü il San-Remo (İtaliya) müəllif filmləri kinofestivalında Böyük Prizə layiq görüldü.

Həmin vaxt Tengiz Abuladze artıq yeni ekran poetikası axtarışına çıxmış, Dağıstan yazıçısı Əhməxan Abu-Bakarın "Sərminaz üçün boyunbağı" povestinin motivləri üzrə "Sevgilim üzrə boyunbağı" filmini çəkmiş, "Mən, nənəm, İliko və İllarion" filmindəki xətti davam etdirmiş, xalq müdrikliyindən qaynaqlanan yumorla tamaşaçıları ovsunlamışdı. Tbilisidə keçirilən V Ümumittifaq kinofestivalında lent "Komediya janrına töhfəyə görə" diplomunu və mükafatını qazanmışdı...

**IV. Üçüncü xatırlatma: Diləkdən tövbəyədək**

Artıq Gürcüstanın "Əməkdar incəsənət xadimi" (1961), "Xalq artisti" (1966) fəxri adlarını daşıyan Tengiz Abuladze 70-ci illərin əvvəllərində sənətdaşları ilə birgə Şota Rustaveli adına Tbilisi Dövlət İnstitutunda kinorejissorluq fakültəsinin yaradılmasıyla bağlı təşəbbüs qaldırmış, arzusu gerçəkləşəndən sonra 1974-cü ildə öz emalatxanasını yaratmışdı. Elə həmin ildən "Gürcüstanfilm" kinostudiyasının bədii rəhbəri təyin edilməsi yaradıcılığında müəyyən fasilə yaratsa da, trilogiyanın ikinci filmi üzərində işə başlamışdı.

O, bu dəfə məşhur gürcü şairi Georgi Leonidzenin hekayələrinə üz tutmuş, yazıçı-ssenariçi Revaz İvanişviliylə birgə qələmə aldığı (1977) süjetə "Dilək ağacı" (müəllifin hekayələrindən biri) adı vermişdi. Ötən əsrin əvvəllərində baş verən sevgi hekayətini ustalıqla poetik pritçaya çevirən, zəngin rəng çalarları və Şekspirsayağı pafosuyla tamaşaçılara təqdim eləyən rejissor, sözün əsl mənasında, sənət zəfərinə imza atdı. Film elə həmin il Tengiz Abuladzeyə X Ümumittifaq kinofestivalında Baş Priz, Tehran kinofestivalında "Qızıl kəl", sonrakı il Karlovı Varı kinofestivalında Xüsusi priz, 1979-cu ildə İtaliya ekranlarında nümayiş etdirilən ən yaxşı film üçün "David di Donatello" milli mükafatı, 1983-cü ildə Kabur (Fransa) romantik filmlər kinofestivalında priz qazandırdı.

Amma 1978-ci il rejissor üçün, az qala, faciəylə nəticələnəcəkdi. "Dilək ağacı" filminin İrəvanda nümayişindən sonra geri dönən Tengiz Abuladze qəzaya uğramış, möcüzə nəticəsində sağ qalmışdı. Uzunmüddətli müalicədən sonra yenidən kinoya qayıdan rejissorun 1979-cu ildə Gürcüstan SSR Şota Rustaveli adına Dövlət Mükafatına, 1980-ci ildəsə "SSRİ Xalq Artisti" fəxri adına layiq görülməsi əlavə yaradıcılıq stimulu kimi çox vacib idi.

Yenidənqurma və aşkarlıq siyasətinin gündəmə gəlməsiylə Tengiz Abuladze trilogiyasını tamamlamaq üçün bu fürsətdən məharətlə yararlandı. Onun Nana Canelidzeylə birgə yazdığı ssenari Dövlət Kinematoqrafiya Komitəsinin müqavimətinə rast gəlsə də, maneələri aşa bildi, tamaşaçılara uydurma diktator Varlam Aravidze və rəssam Dandro Baratelinin hekayətini təqdim elədi. Hər bir xalq öz xoşagəlməz keçmi-şindən qurtulmaq üçün tövbədən keçməlidi – rejissorun "Tövbə" filmində ekran vasitəsiylə göstərdiyi yol budu. Amma Avelin oğlu bu həqiqəti dərk eləmir, o keçmişin üstünü örtməyə çalışır, nəvəsi Tornike isə həqiqəti öyrənəndə intihardan başqa çıxış yolu tapmır...



Film 1984-cü ilin əvvəllərində tamamlansa da, bütün diktatorlara məxsus şər qüvvəni pritça formasında ekranlara çıxardığına görə iki il rəflərdə yatıb qaldı. Hətta Tengiz Abuladze həbs təhlükəsiylə üzləşə, karyerasının sona çata biləcəyini də gözə almışdı. Amma 60 illik yubileyi bəhanəsiylə ölkə rəhbərliyi üçün qapalı nümayişin təşkili onu bu təhlükədən xilas elədi. Həmin vaxt hələ Gürcüstan KP MK-nın birinci katibi olan Eduard Şevardnadze rejissora təbrikini çatdırıb bildirdi ki, filmi hamı görməlidi. Amma az sonra onun SSRİ Xarici işlər naziri təyin edilməsi bu prosesi xeyli ləngitdi.

"Tövbə" filminin ekranlara və festivallara yolu yalnız məşhur "Get və bax" filminə görə eyni qadağayla üzləşmiş Elem Klimov 1986-cı ildə SSRİ Kinematoqrafçılar İttifaqının sədri seçiləndən sonra açıldı. Film Kann kinofestivalında Böyük Prizə, eyi zamanda, FİPRESSİ-nin və ekumenik münsiflər heyətinin prizinə layiq görüldü...

**V. Bir saatlıq yol söhbəti**

...Bəxtimin gətirdiyi o may günündə Tengiz Abuladzenin maşınına əyləşəndə yanımda Revaz İnanişvilini görüb daha həyəcanlandım, təqdim eləməsini gözləməyib dilləndim:

- Badono Revazı tanıyıram, kitablarını oxumuşam, üstəlik, həmyerliyik, mən də Yor-Muğanlıdanam (Qaraçöpün inzibati adı bu cürdü).

- Çox şadam, - Revaz İnanişvili əl uzatdı. – Elə bizim rayona gedirik, kalbatono Medeyanın (Saqareco rayon partiya komitəsinin birinci katibi, Gürcüstan KP MK-nın üzvü Medeya Mezvrişvili) qonağı olacağıq.

Bu səmimiyyətdən cəsarətlənib Tengiz Abuladzeni Kann zəfəri münasibətilə təbrik elədim, bütün filmlərinə baxdığımı da bildirdim. Kinoya bələdliyim hər ikisinin döşünə yatdığına görə, söhbət Azərbaycan kinosuna keçdi. Tengiz Abuladze tələbəlik illərində Əjdər İbrahimov və Tofiq Tağızadəylə yaxın tanış olduğunu, Şamil Mahmudbəyovla eyni vaxtda oxuduğunu dedi, "Şərikli çörək" filmi haqqında müsbət fikirlər bildirdi, rejissorun o xətti davam etdirməyindən təəssüfləndi. Sonra Rüstəm İbrahimbəyovla yaxın münasibətdə olduğunu, onun dağılmaqda olan kino məkanını qoruyub saxlamaq üçün göstərdiyi fəaliyyəti təqdir elədiyini söylədi.

Revaz İnanişvili isə Tofiq Mirzəylə bir neçə hekayəsini dilimizə çevirdiyimizdən xəbər tutanda ədəbi əlaqələrimizi inkişaf etdirməyin vacibliyini bildirdi, bu yönümdə Leyla Eradze və Dilarə Əliyevanın xidmətlərini dilə gətirdi.

Beləcə, təxminən bir saat sürən əlli kilometrlik yol Saqareco yaxınlığındakı qədim qalada sanki bir göz qırpımında başa çatdı...

**VI. Tengiz Abuladzenin məclisi**

Qalanın ərazisinə girəndə dəstə-dəstə yığışmış festival iştirakçıları arasında qəzet-jurnallardan, televiziya və kino ekranlarından tanıdığım bir çox məşhur simaları – Lidiya Fedoseyeva-Şukşina, İrina Alferova, İqor Kostolevski, Yelena Safonova... – tanıdım. Onların arasında Azərbaycan kinosunun nümayəndələri aktrisa Həmidə Ömərova və rejissor Cahangir Zeynallını da görüb sevindim.

Qalanın ərazisiylə tanışlıqdan, ekskursiyaçının tarixi arayışından sonra festival iştirakçılarının şərəfinə banket verildi. Medeya Mezvrişvili əsl gürcü qonaqpərvərliyiylə gözəl süfrə hazırlatmışdı.

O məclisin tamadası da, əlbəttə ki, şöhrətinin zirvəsində olan Tengiz Abuladze seçildi. Gürcü süfrəsinin özünəməxsus akademiya, hər bir tostun öz vaxtı və yeri, qaydaları gözləməyin vacib olduğunu bilməyən, üstəlik, bol süfrədən, gürcü qonaqpərvərliyindən və çaxırından vəcdə gəlmiş sənət adamlarını idarə eləməyin çətinliyini başa düşən Tengiz Abuladze iştirakçılara əsl ziyalı təmkiniylə unudulmaz anlar yaşatdı.

Şübhəsiz, belə böyük məclisdə gözlənilməz məqamların ola biləcəyini də nəzərə almış, yerli cavanlardan bir neçəsini çağırıb "ipi itirən kinematoqrafçıları" sakitcə avtobuslarda və maşınlarda yerləşdirməyi tapşırmışdı.

Həmin məclisin son kadrı indi də yaddaşımda olduğu kimi qalıb: Tengiz Abuladze bayıra çıxanda mən təkcə dayanmışdım. O, üzümə baxıb gülümsədi, səndələyə-səndələyə gedən permli rejissora işarə eləyib dilləndi:

- Bax, bu da sovet kinosu! Amma belə şeyləri yazmayın!

**VII. Zəfərlə bitən ömür**

Tengiz Abuladzeni bir də festivalın bağlanış mərasimində, "Tövbə" filminə görə Baş Prizi alanda gördüm...

Təəssüf ki, taleyin o xoş təsadüfündən sonra onunla bir daha rastlaşmaq mənə nəsib olmadı. Amma daim mətbuatda uğurlarını izləyirdim. "Tövbə" filminin həmin il Beynəlxalq Çikaqo kinofestivalında Xüsusi Prizə, Rusiya Kino Akademiyasının "Ən yaxşı bədii film", "Ən yaxşı rejissor işi", "Ən yaxşı ssenari işi" nominasiyaları üzrə "Nika" mükafatına, 1988-ci il Varşava kinofestivalında tənqidçilərin "Ən yaxşı xarici film" prizinə layiq görüldüyündən xəbər tutdum.

1988-ci ildəsə Tengiz Abuladze "Dua", "Dilək ağacı" və "Tövbə" trilogiyasına görə Lenin mükafatına layiq görüldü...

O, 1989-cu ildə Gürcüstandan SSRİ xalq deputatı seçildi, bununla belə, həmin il aprelin 9-da Abxaziyada baş verən separatçı hərəkətlərə etiraz eləyən xalqa qarşı ölkə rəhbərliyinin qoşun göndərməsinə kəskin etiraz səsini ucaldanların, respublikanın suverenliyinə səs verənlərin ön cərgəsində oldu.

Təəssüf ki, "Tövbə" filmi böyük ekran ustasının son əsəri oldu. 1994-cü il martın 6-da dünyasını dəyişəndə 70 yaşı yenicə tamam olmuşdu...

70 yaşında cəmi 7 tammetrajlı bədii filmlə (biri şərikli) adını dünya kinosunun nəhəng simaları sırasına yazdıran Tengiz Abuladzenin yaradıcılığı haqlı olaraq gürcü mədəniyyətinin ən parlaq səhifələrindən sayılır...

Onun hər bir filmi hadisə, tamaşaçıları heyrətləndirən və sarsıdan ekran əsəri idi, adamları təkcə baxmağa yox, həm də daxilən dəyişməyə məcbur eləyir, qəlbinin ən incə tellərinə toxunurdu...

**Nəriman ƏBDÜLRƏHMANLI**

POEZİYA

# ŞAİR OĞLUNUN POETİK TƏXƏYYÜLÜ

*Bir insan ömrünü girov qoymuşam,*
*Bir şair ömrünü yaşatmaq üçün.*
*N. Həsənzadə*



Yurdumuzun sazlı-sözlü, nağıllı-dastanlı, qoşqulu-qoşmalı, nəğməli-bayatılı obalarından biri də Gorarxı elinin "Qırmızı körpü" səmtinə axırıncısı - Əzizkənd kəndidir.

XX yüzilliyin əvvəllərində bu kənddə söz-deyim – bir şair ocağı yaşayırdı. Ocağın başçısı Məşədi Abbasqulu İsmayıl oğlu (Eləbağlı) mükəmməl dini təhsil almış maarifçi bir insan və həmçinin söz qoşmağı – şairliyilə tanınmışdır. Sanki, Yaradan bu ocağın sənət bağına şairlik təbi-istedadı bəxş eləmişdir. Oğlu Qurban Əzizli və nəvəsi Xuraman Qurban qızı ata-babasının şeir-poeziya yolunun varisi olmuş, "sonun başlanğıcında" qərarlaşmış, bu gün də bu yolun sadiq və layiqli davamçısı kimi yazıb-yaradırlar.

Söhbətimizin məğzi bu poeziya ocağının birindən – Qurban Əzizlinin şeir aləminin mənzərələrinin səmtlərini – cəhətlərini hörmətli oxucu dostlara çatdırmaqdır.

**Əvvəl – həyatnaməsindən sətirlər...**

Qurban Əzizli birinci cahan savaşı illərinin birində - 1942-ci ildə Marneuli Rayonundakı Gorarxı elinin Əzizkənd kəndində dünyaya gəlmiş, orta təhsilini doğma kəndində almışdır. Ədəbiyyata-poeziyaya sonsuz maraq Qurbanı keçmiş V. İ. Lenin adına A.P.İ-nin tarix – filologiya fakültəsinə gətirib çıxarmışdır. 1967-ci ildə təhsilini bitirib doğma kəndinə qayıdır. Şair müəllimlik fəaliyyətinə başlayır. Gənc müəllim bilik – bacarığı ilə şagird-müəllim kollektivinin rəğbətini qazanıb, sıravi müəllimlikdən məktəbin direktoru vəzifəsinə qədər yüksəlib. Müəllim işlədiyi dövrdə "Baş müəllim", "Metodist müəllim" kimi fəxri adlara layiq görülüb. Şagird-tələbə və müəllim Qurbanın həyat yolunda bir mayak parıldayır. Bu poeziya buketi – nəğmə çələngli şeir – sənət – şair mayakıdır. Poeziya aləminə qədəm qoyan Qurban Əzizli Azərbaycan – Gürcüstan mətbuatlarında çap olunmağa başlayıb. Nəhayət "Yurd işığı gözə nurdur" kitabı 2020-ci ildə oxucuların sərəncamına verilib.

**Sonra – Tədqiqi tarixinə bir nəzər.**

Qurban Əzizlinin poeziya yaradıcılığına dair bir neçə elmi-tənqidi yazılar müxtəlif mətbuatlarda dərc edilib. Bu yazılarda şairin önəmli poetik vəziyyətlərindən söhbət açılır, orijinal poetik xüsusiyyətlərindən, dil sadəliyindən danışılır, təqdir edilir.

Şair, dosent Rübail Gəncə "Sözünün əvvəli, sonu Vətəndir" adlı kiçik həcmli yazısında şair Qurban Əzizlinin elə-obaya, Vətənə, torpağa sonsuz məhəbbətindən, bağlılığından danışır, düşüncələrini şairin poetik deyimlərilə əsaslandırır. Vətənə məhəbbət – vətən sevgisi mövzularının Qurban Əzizli poeziyasında aparıcı mövzu olduğunu filologiya doktoru, Nizamişünas Xəlil Yusifli "Qurban Əzizlinin söz çiçəkləri" məqaləsində təhlili əsaslarla sübuta yetirir. Bu mövzulu təqdimatlar yazıçı-publisist Bahəddin Orucovun "Şair istedadlı, şair dünyalı insan", filoloq-alim Mahmud Hacıxəlilovun "Çoxdan tanıyıram şair Qurbanı", şair, filoloq-alim Şurəddin Məmmədlinin "Əzizlinin söz çiçəyi", şair Dərviş Osmanın "Mənim qələm dostum-Qurban qardaşım", yazıçı Əbdüləli İbrahimovun "Sözün urvatını gözləyən şair", filoloq Sona Həsənovanın "Şairi oxuyub, duyub anladım" məqalələrində bu və ya digər səciyyələrlə təsdiqləməyə çalışmışlar. Sevinc Məmməd qızının "Yaradıcılıq işığında" adlı iri həcmli tədqiqi yazısında şair Qurban Əzizli poeziyasının mövzu fərqləri üzərində müfəssəl dayanır, şairin arzu və düşüncələrinin yüksək poetik formada ifadə tərzindən danışır.

**Mövzu əlvanlığının səciyyəvi yönləri**

Qarşımızda şairin külli miqdarda lirik şeirləri toplanmışdır. Bunlar müxtəlif illərdə qələmə alınmış müxtəlif biçimli – mövzulu, həcmcə, formaca fərqli poetik nümunələrdir. İlk baxışda mövzu etibarı ilə diqqəti çəkən vətənə məhəbbət, doğma torpağa, elə-obaya bağlılıq ideya-motivləri üzərində pərvəriş söz çələngləridir.

Müharibələr dövründə yaşayırıq. Azərbaycan ordusunun qələbələri bizi sevindirir. Qurban Əzizli narahatdır. Qəm bəhrində çalxalanır. Qələminə sarılır. "Oğul" şeirində oğul xitablı obrazı məharətlə ümumiləşdirilmişdir:

*Sən tanı düşmənin qurduğu toru,*
*Qoyma ki, alınsın bədiyyət qoru,*
*Bu yolda can çürüt, yurdunu qoru,*
*Qoşul el gücünə, axına oğul!*

Bu mövzu həndəvərli lirik şeirlər Qurban Əzizli yaradıcılığında çoxluq təşkil edir. Bu soraqlı şeirlər qrupunda "Olmasa", "Ar olsun sənə", "Ey nər oğullar", "Vətəndir", "Torpaq", "Şəhidlər" və başqa bir sıra nümunələr sənətkarlıq xüsusiyyətləri, ifadə tərzi, dil sadəliyi, forma seçimi baxımından Qurban Əzizli poeziyasında milli qürur, milli iftixar olduqca güclüdür. Milli qəhrəmanlar şairin bəndlərində xatırlanır, bədii sözün siqlətilə təqdir edilir. Qurban Əzizli Milli bayramların, adət-ənənələrim tapındığı dini görüşlərin təbliğində nümunəvi simvola çevrilir. Onu da vurğulayır ki, dini mövzuların geniş intişarında atası şair Abbasqulu Eləbağlının ideya-mövzularının ciddi təsiri, sirayəti ilk nəzərdə büruzə verir.

Novruz bayramına şair dəfələrlə müraciətlə biri digərindən fərqli söz-sənət çələngləri yaratmışdır. "Novruzum", "Gəl, şair ömrümün barı Novruz", "Gəlib Novruz bayramı", "Yaşa, yaşa Novruzum" ünvanlı lirik nümunələrdə xalqımızın əziz bayramını səmimi duyğularla nəzmə çəkir:

*Sazla qara zurna birgə dinəndə,*
*Sevinər el-oba, səs düşər kəndə.*
*İstəyim-diləyim minər səməndə,*
*Qədəmin mübarək, a Novruz günüm.*

Şairin poeziya örnəkləri içərisində təbiəti vəsf edən lirik nümunələri oxuduqca sanki Qurban Əzizli ilə yanaşı durub füsunkar gözəlliklərin, dağların, dərələrin seyrinə dalırsan. O, təbiət gözəlliklərinin tərənnümünə "Dağlar" ünvanlı lirik şeir qələmə alıbdı. Şeirlərin hər birinə şair əsil sənətkarlıq müvqeyindən yanaşmış, əsrarəngiz təbiət naxışlarını qüdrətli qələmilə vəsf edib. "Ayağımı yusun şehin, telə daraq çəksin mehin" – deyən şair bu dağların bir vaxtlar nənə - babaların oylağı olduğunu da xatırlayır:

*Yanar ocaq-köz qoyubdur.*
*Şirin söhbət, söz qoyubdur.*
*Sizdə itməz iz qoyubdur*
*Ulu babam, nənəm, dağlar.*

Məlum həqiqətdir ki, folklordan istifadə etmədən zəngin söz-poeziya çələngi yaratmaq mümkün deyildir. Qurban Əzizli poeziyasını oxuduqca şairin folklordan yaddaş ədəbiyyatdan necə məharətlə istifadə etdiyini əyani şəkildə görürük. Folklordan istifadə yolları rəngarəng və müxtəlifdir. Canlı xalq dilindən istifadə, folklor poetik formada yaratmaq, xalq mövzularının yenidən işlənməsi, folklor janrlarına bənzər nümunələr yaratmaq və s. Bütün bu ədəbi-bədii məziyyətlərdən Qurban Əzizli özünəməxsus ustalıqla istifadə etmişdir. Əlavə olaraq qeyd edək ki, şairin aşıq ədəbiyyatına olan simpatiyası-hüsn-rəğbəti sonsuzdur, coşqundur. Ustad Hüseyn Saraclının anım gününə yazdığı "Babam", "Qan yaddaşda qaldı Əmrah", Xındı Məmmədə həsr etdiyi "A Məmməd dayı", "Kamandar dayı", "Kamandar", "Bu Qırxılı Hüseyndi", "Aşıq Göyçə" lirik şeirləri sadəliyi, oxunaqlığı səmimi deyimlərilə könül oxşayandır, cazibədardır.

Bununla bu qısa qeydlərə yekun vurmaq istəyirik. Bu müxtəsər məqalədə Qurban Əzizli poeziyasının təhlil və tədqiqi imkan xaricindədir. Mövzu öz tədqiqatçısını gözləyir.

Səmimi və xoş duyğularla. **Avtandil Qəriboğlu,**
**Tədqiqatçı.**

TƏHSİL

# BİR MƏKTƏB HAQQINDA QEYDLƏRİM

Vətənimizin füsunkar bir bölgəsidir Faxralı (indiki Talaveri) kəndi. Əsrlərdən gələn zəngin tarixi, mədəniyyəti, gözəl ənənələri olan Böyük Eldir Faxralı. Faxralı (indiki Talaveri) haqqında yazmaq böyük məsuliyyətdir mənim üçün. Bolnisi bələdiyyəsinin kəndləri arasında öz xüsusi yeri var Faxralı elinin. Həm əhatə etdiyi coğrafiyasına, həm də tariximizə, mədəniyyətimizə, təhsilimizə verdiyi əvəzolunmaz töhfələrlə seçilib Faxralı kəndi həmişə. Faxralı şairlər, saz-söz ustaları, savadlı və yüksək səviyyəli müəllimlər, həkimlər, idmançılar, vətən uğrunda qəhrəmanlıq göstərmiş igidlər, zəhmət adamları ilə şöhrət qazanmış bir diyardır. Ən əsası, Faxralının təhsil, elm sahəsində öz xüsusi yeri vardır.

Mən bu yazımda Faxralının 2 saylı məktəbindən bəhs etmək istəyirəm. Niyə məhz Faxralıdan və məktəbdən yazmağımın əsas səbəbi mənim bu kəndə, onun insanlarına duyduğum hörmət və sevgi ilə bağlıdır. Kənd haqqında uşaqlıqdan eşitdiklərim və daha sonralar məndə bu kəndə, onun insanlarına qarşı xüsusi münasibətin formalaşmasına səbəb oldu.

Ailəmizdə atamın xüsusi günlərdə Aşıq Nəbi və digər söz ustadlarının şeirlərini söyləməsini eşitmişəm həmişə. Anamın əslən Faxralıdan olan və həyatda olmasalar belə adları dillərdən düşməyən müəllimlərindən, xüsusən də mərhum İmaməli Babaşovdan necə sevgi və hörmətlə danışdığını eşitmişəm dəfələrlə. Tələbəlik illərində əsli Faxralıdan olan əziz müəllimlərimin, xüsusən də çox hörmətlə və həssaslıqla xatırladığım mərhum Qulu Bədəlovun simasında bu kəndə və onun insanlarına duyduğum hörmət daha da artdı.

Məktəb gənc ziyalımız Elanora Məmmədovanın rəhbərliyi altında fəaliyyət göstərir. Bolnisi bələdiyyəsinin ən gənc məktəb rəhbəridir Elanora müəllim. Onunla qiyabi, daha sonra şəxsi tanışlığım bu çox təvazökar, yüksək biliyə və peşəkarlığa, gözəl insani keyfiyyətlərə malik gənc qızın rəhbəri olduğu məktəb haqqında yazmağıma səbəb oldu.

Elanora müəllim 2016-cı ildə İvane Cavaxaşvili adına Tbilisi Dövlət Universitetinin ingilis dili və filologiyası fakültəsinə qəbul olub. 2020-ci ildə ali təhsilini bitirib. Həmin ildən Talaveri kənd məktəbində müəllim kimi çalışmağa başlayıb. Onun babası olan dəyərli ziyalımız Xosrov İsmayılın Elanora müəllimin müəllimlik sənətinə olan marağının və sevgisinin yaranmasında müəyyən rolu olmuşdur.

2021-ci ildə Gürcüstan Milli Universitetində (SFU) təhsilin idarə olunması ixtisası üzrə magistr təhsili alıb. Direktor imtahanını uğurla verən gənc müəllim 2024-cü il iyunun 19-dan 2 saylı məktəbdə direktor kimi fəaliyyətə başlayıb. Onun idarə etdiyi məktəbin böyük iş təcrübəsi, yüksək səviyyəli və peşəkar pedaqoji heyəti vardır.

Məktəb keçən əsrin 60-cı illərindən mövcuddur. Bu illər ərzində məktəb bir çox sayda dəyərli ziyalılarımız tərəfindən idarə olunub. Məktəbin ilk direktoru Məmmədəli Şərifov olub. Onunla yanaşı, müxtəlif illərdə məktəb Sədrəddin Namazov, Abbas Abbasov, Bayram Abbasov, Seyfəddin Məmmədov, Xosrov İsmayıl, Aygün Mahmudova tərəfindən idarə olunub.

Məktəb haqqında məlumatları mənimlə bölüşən Aygün xanım məktəb və onun zəngin tarixindən çox böyük həvəslə və qürurla söhbət açdı. Bakı Dövlət Universitetinin məzunu olan Aygün müəllim məktəbin ilk baş müəllimi statusunu daşıyır. O, məktəbin dərs hissə müdiri kimi fəaliyyət göstərir. Qeyd etmək istəyirəm ki, məktəbin pedaqoji kollektivi 25 nəfərdən ibarətdir. Hər biri öz işini böyük məsuliyyət və yüksək peşəkarlıqla yerinə yetirir. Onların əməyinin nəticəsi hər il Gürcüstanın nüfuzlu ali təhsil müəssisələrinə qəbul olan şagirdləridir. Məktəbin çoxillik tarixinə nəzər saldıqda onun yetirmələri içərisində çox sayda müəllimlər, həkimlər, alimlər, dövlət məmurları, idmançılar görə bilərik. Sevindirici haldır ki, məktəbin yetirmələri içərisində görkəmli şəxsiyyətlərin çox sayda olması hər birini ayrı-ayrılıqda qeyd etməyə imkan vermir.

Məktəb oturuşmuş ənənələrə sadiq, eyni zamanda müasir tələblərə cavab verən iş prosesi sərgiləyir. Müxtəlif layihələrdə iştirak edən məktəb həmişə uğur qazanaraq Bolnisi bələdiyyəsinin məktəbləri sırasında ön yerlərdən birini tutmuşdur. Gürcüstan üzrə çox sayda məktəbin iştirak etdiyi və Dünya Bankının maliyyə dəstəyi ilə baş tutan layihədə 80 məktəb sırasında birincilik qazanıb. Məhz bunun nəticəsi olaraq məktəbdə müasir texnologiyalar və avadanlıqlarla təchiz olunmuş klub fəaliyyətə başlayıb. Layihənin məqsədi təbiət elmləri sahəsində istedadı olan gənclərin aşkar edilməsi və onlara biliklərini praktiki nümayiş etdirmək məqsədi daşıyır. Bununla yanaşı, məktəbdə "Gənclər klubu" fəaliyyət göstərir. Burada maarifləndirici treninqlər keçirilir, görüşlər təşkil olunur. Kluba Ayişə Əhmədova rəhbərlik edib və onun apardığı iş prosesi səmərəli nəticələr verib. Bu treninqlər və görüşlər gənclər, xüsusən də gənc qızların erkən evlilik və onun yaratdığı problemlərin dərk edilməsində səmərəli iş görüb və görməkdədir.

Qeyd etmək istəyirəm ki, Ayişə Əhmədova hazırda bələdiyyə deputatıdır. Məktəb dəfələrlə Gürcüstan üzrə keçirilən və əsas hədəfi gənclərin maarifləndirilməsi məqsədi daşıyan layihələrə qatılıb. Erkən evlilik, gender bərabərliyi və digər həlli vacib olan və aktuallıq daşıyan layihələrə qoşulub. Məktəbin özünəməxsus ənənələri vardır. Hər il məktəb səviyyəsində keçirilən bütün tədbirlərdə və bayram şənliklərində təqaüddə olan müəllimlər iştirak edirlər. Bu gözəl ənənə kollektivdə çalışan pedaqoqlar arasında səmimi münasibətin və səmərəli əməkdaşlığın olmasından xəbər verir.

Məktəbdə 2009-cu ildən etibarən məsləhətçi müəllim statusu daşıyan pedaqoq çalışır. O, Lia Saralidzedir. Lia müəllim böyük fədakarlıqla müəllimlərin və şagirdlərin dil baryerini aşmalarında önəmli iş aparır. Müəllimlərin sertifikasiya imtahanlarına, eləcə də gürcü dilini öyrənmələrində yardımçı olur. Gənclərin universitetdə yüksək səviyyədə təhsil almaları üçün önəmli amil olan dil səddini aşmalarında onlara yardım edərək peşəkar səviyyədə gürcü dili dərsləri keçir. Bu həm də gənclərin cəmiyyətə inteqrasiya prosesini tezləşdirir və onların sosial həyatda daha inamlı iştirakına şərait yaradan amillərdən biridir.

Talaveri 2 saylı məktəbinin gənclərin təhsili və inkişafında tutduğu yer əvəzolunmazdır. Xalqın mənəvi beşiyi olan məktəb onun həyatında çoxşaxəli rol oynayır. Çoxillik fəaliyyəti dönəmində yüzlərlə istedadlı, cəmiyyətə faydalı gənclər yetişdirən məktəb hal-hazırda da bu istiqamətdə fəaliyyətini davam etdirməkdədir. Uzun illər minlərlə gəncin düzgün və hərtərəfli inkişafına əvəzsiz töhfələr vermiş məktəb Bolnisi bələdiyyəsinin məktəbləri sırasında ən layiqli ön yeri tutmaqdadır.

Ümidvaram ki, məktəb gənc nəslin formalaşmasında, onlara xalqımıza məxsus mənəvi dəyərlərin aşılanmasında, ana dilimizin sonrakı nəsillərə çatdırılmasında və ən əsası, milli varlığımızın daşıyıcıları olan gənclərin düzgün yetişdirilməsi yönündə həmişə məqsədyönlü fəaliyyət göstərəcəkdir. Mən məktəbin pedaqoji kollektivinə və onun gənc rəhbəri Elanora Məmmədovaya işlərində uğurlar arzulayıram!



**Leyla Nəbiyeva - Yusifova**

GÜRCÜSTAN MƏTBUATI NƏDƏN YAZIR?

საქართველოს რესპუბლიკა

24 yanvar 2025-ci il "SAKARTVELOS RESPUBLİKA"

## Milli Arxiv Beynəlxalq Bərpaçılar Assosiasiyasının üzvü oldu

Gürcüstan Milli Arxivi Kitab və Kağız Mühafizəçiləri Beynəlxalq Assosiasiyasına (IADA) qoşulub ki, bu da quruma bərpa sahəsində dünyanın qabaqcıl təcrübəsi, innovasiyaları və yeni texnologiyalarla tanış olmağa və onları öz fəaliyyətində tətbiq etməyə imkan verəcək. Bu Assosiasiya bütün dünyada kitab və kağız bərpası sahəsində çalışan mütəxəssisləri birləşdirir.

Milli Arxivdən verilən məlumata görə, Assosiasiyaya üzvlük Milli Arxivlərə dünya bərpaçılar birliyi ilə sıx əlaqələr qurmağa, Assosiasiyanın planlaşdırdığı seminar, simpozium və konqreslərdə iştirak etməyə imkan verəcək; Peşəkar təşkilatlarla əməkdaşlığı dərinləşdirin, ixtisaslaşmış nəşrlər və digər resurslarla tanış olun.

Milli Arxiv bərpa laboratoriyasının inkişafı üzərində daim çalışır. Bərpaçılar həm kağız üzərində, həm də əlyazma və sənədlərin, kitabların, miniatürlərin, plakatların, rəsmlərin, fotoşəkillərin bərpası üzərində işləyirlər ki, bu da ölkənin mədəni irsinin qorunmasına və qorunub saxlanılmasına xidmət edir.

ВСЕ НОВОСТИ НА 24 СТРАНИЦАХ И ПРОГРАММА ТВ! + вся Грузия

Вечерний Тбилиси

24-30 yanvar 2025-ci il "VEÇERNİY TBİLİSİ"

## Bakıda Gürcüstan səfirliyinin binası tikiləcək

Hökumət administrasiyasının mətbuat xidməti xəbər verir ki, Bakıya səfəri zamanı Baş nazir İrakli Kobaxidzeyə paytaxtın mərkəzi rayonunda Gürcüstan səfirliyi üçün yeni binanın tikiləcəyi torpaq sahəsi təhvil verilib.

Gürcüstanın Baş naziri ölkələr arasında iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın onuncu yubiley iclasında iştirak etmək üçün Bakıya gəlib.

Yaxın vaxtlarda Gürcüstanın Azərbaycandakı səfirliyinin binası-nın tikintisinə başlanılacaq. Torpaq sahəsi 3,45 min kvadratmetrdir. Hazırda Gürcüstan səfirliyi Yaşar Hüseynov küçəsində üçmərtəbəli binada yerləşir.

Gürcüstan hökumətinin başçısı Azərbaycanın Baş naziri Əli Əsədov və hökumət üzvləri ilə birlikdə əraziyə baxış keçirib.

Torpaq sahəsi Prezident Əliyevin sərəncamına əsasən, Azərbaycan Nazirlər Kabinetinin 2023-cü il sərən-camı əsasında ayrılıb.

Obyekt Bakının Yasamal rayonunda, Nəriman Nərimanov prospekti ilə Bəşir Səfəroğlu küçəsinin kəsişməsində yerləşir.

## Morçiladze Nobel mükafatına namizəd olub

Yazıçı Aka Morçiladze (Georgi Axvlediani) Nobel mükafatına namizəd göstərilib. Bu barədə məlumatı Gürcüstan Ədəbiyyat İnstitutu yayıb. "Şota Rustaveli adına Gürcüstan Ədəbiyyat İnstitutu TDU-nun Humanitar Elmlər fakültəsi və Gürcüstan Müqayisəli Ədəbiyyat Assosiasiyasının birgə qərarı ilə yazıçı Aka Morçiladzenin 2025-ci ildə Ədəbiyyat üzrə Nobel Mükafatına yenidən namizədliyini irəli sürdüyünü bildirməkdən şərəf duyuruq. Ona və bütün Gürcüstana uğurlar!" - dərc olunmuş məlumatda deyilir.

Morçiladze 2024-cü ildə də mükafata namizəd göstərilsə də, uğur qazana bilməyib. Vaxtilə Gürcüstan yazıçılar Quram Doçanaşvili, Otar Çiladze, Qriqol Robakidze, Besik Xaranauli və Çabua Amirecibinin namizədliyini də irəli sürüb.

Təhsilinə görə tarixçi, 58 yaşlı Aka Morçiladze Gürcüstanın baş ədəbi mükafatı olan "Saba"nın altıqat laureatıdır.

1990-cı illərdə Axvlediani Tbilisidə jurnalistika sahəsində fəal çalışıb. Həmin zamanda Aka Morçiladze təxəllüsü ilə nəşr olunmağa başlayıb.

Yazıçı "Paliaşvilinin küçə itləri", "Qarabağda gəzinti", "Başqaları" və digər kitabları ilə məşhurlaşıb.

Onun əsərləri və ssenariləri əsasında çəkilmiş filmlər Avropanın aparıcı kinofestivallarında mükafatlar qazanıb.

Morçiladze uzun müddətdir ki, Londonda yaşayır və işləyir, lakin istisna şəkildə Gürcüstan haqqında yazır.

ЕЖЕНЕДЕЛЬНАЯ ГАЗЕТА С ПОЛНОЙ ТЕЛЕПРОГРАММОЙ

ТБИЛИССКАЯ НЕДЕЛЯ

22-28 yanvar 2025-ci il "TBİLİSSKAYA NEDELYA"

## Gürcüstan ilk dəfə olaraq ABŞ-də keçirilən ən böyük texnologiyalar və innovasiyalar sərgisində iştirak edib

İqtisadiyyat və Davamlı İnkişaf nazirinin müavini İrakli Nadareişvili bildirib ki, Gürcüstan ilk dəfə olaraq Las-Veqasda keçirilən dünyanın ən mühüm və irimiqyaslı texnologiya sərgilərindən birində - CES (Consumer Electronix Show) sərgisində iştirak edib və bu, ölkənin startap ekosisteminin qlobal miqyasda nümayiş etdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Yanvarın 7-dən 10-dək Las-Veqasda Beynəlxalq İstehlak Elektronikası Sərgisi (CES) keçirilib.

Nadareişvilinin başçılıq etdiyi Gürcüstan nümayəndə heyəti təşkilatçıların xüsusi dəvəti ilə tədbirdə iştirak edib. Gürcüstan beynəlxalq bazarda startapların inkişafı üçün əlverişli mühitə malik ölkə kimi mövqe tutmasını nəzərdə tutan "StartUP in Georgia" təşəbbüsü ilə təmsil olunur.

*"İnnovativ startap ekosisteminin inkişafı Gürcüstan hökumətinin iqtisadi siyasətinin mühüm və əsas hissələrindən biridir. Bu yolda mühüm komponentlərdən biri ölkənin startap ekosistemini qlobal miqyasda nümayiş etdirməkdir və bunun üçün ən yaxşı yoldur. Bu, qlobal texnologiya sərgiləri və konfransları vasitəsilədir"*, - deyə Nadareişvili çıxışı zamanı bildirib.

Nadareişvili "İmkanların açılması: Startapları dəstəkləmək və inves-tisiyaları artırmaq üçün hökumət strategiyaları" mövzusu ilə əlaqəli panel müzakirəsində iştirak edib.

Onun sözlərinə görə, Gürcüstanda innovativ startap ekosisteminin inkişafı ölkədə bilik və innovasiyaya əsaslanan iqtisadiyyatın inkişafını nəzərdə tutur və bu səbəbdən də dövlət startapları müxtəlif yollarla dəstəkləyir, infrastrukturun inkişafına, infrastrukturun inkişafı üçün böyük maliyyə və texniki yardıma böyük diqqət yetirir.

Gürcüstan hökuməti ölkədə startapları fəal şəkildə dəstəkləyir. 2014-cü ildə İqtisadiyyat Nazirliyinin tabeliyində İnnovasiya və Texnologiyalar Agentliyi yaradılıb. Agentliyin əsas məqsədi ölkədə innovativ ekosistem yaratmaq və bu sahəyə dəstək olmaqdır. Agentlik sahibkarlığın və innovativ mühitin yaxşılaşdırılmasına yardım edir.

Nadareişvili müzakirə iştirakçılarına Gürcüstanda mövcud innovasiyalara dəstək proqramları, vergi güzəştləri, maliyyə imkanları və tədqiqat sahələri haqqında ətraflı məlumat verib.

Hökumət tərəfindən həyata keçirilən islahatlar xüsusi maraq doğurdu, bunun nəticəsində Gürcüstanın startap ekosistemi regional əhəmiyyətə malik xüsusi cəlbedici mərkəzi təmsil edir və qlobal investorlar və xarici startaplar üçün ciddi maraq kəsb edir.

Müzakirələrə həmçinin İstehlak Texnologiyaları Assosiasiyasının (CTA) Beynəlxalq Ticarət üzrə vitse-prezidenti Ed Bzytva və Avropa İttifaqı İnnovasiya Şurasının icraçı direktoru Jan-David də qatılmışdı.

Səfər çərçivəsində Nadareişvili, İnnovasiyalar və Texnologiyalar Agentliyinin sədri Avtandil Kasradze və Gürcüstanın San-Fransiskodakı baş konsulu Levan Kulidcanaşvili CTA-nın prezidenti Kinsey Fabrizio və CES-in vitse-prezidenti Con Kelli ilə görüşüblər.

Tanışlıq görüşündə Gürcüstan tərəfi Gürcüstanın Startap Ekosistemi, İnnovasiya və Texnologiyalar Agentliyinin fəaliyyəti və proqramları haqqında ətraflı məlumat verib. Tərəflər gələcək əməkdaşlıq planları barədə razılığa gəliblər.

Sərgidə 4,5 mindən çox şirkət, o cümlədən istehlakçı texnologiya avadanlığı, məzmun, texnologiyanın çatdırılması sistemləri və s. istehsalçıları, tərtibatçıları və təchizatçıları, eləcə də 160 ölkədən 170 000-dən çox ziyarətçi iştirak edib. Konfransın proqramı 250-dən çox tematik sessiyadan ibarətdir.

SAĞLAMLIĞIMIZI QORUYAQ

# YÜKSƏK QAN TƏZYİQİNİ AZALDAN 6 QİDA MƏHSULU

### Bibər



Bibərlərin bir çox növü mövcuddur: **kayen bibəri, qara bibər, yaşıl bibər, çili, qırmızı bibər, xalapenyo, Sıçuan bibəri, yamay bibəri (ətirli bibər), Pippali bibəri.**

Bu bibər növləri haqqında növbəti sayılarımızda məlumat verəcəyik.

**Kayen bibəri:** kapsikum ailəsinə mənsum bibər növlərindən biridir. Bəzi mənbələrə görə, kayen bibəri "Capsicum annuum" növünün sinonimi, digərlərinə görə isə müstəqil növ olan "Capsicum frutescens" (kol bibəri) Capsicum cinsindəndir. Bibər və ya paxlalı bibər, Tərəvəz bibəri ( lat. Capsicum ) - Solanaceae fəsiləsinin Capsiceae ailəsinə aid bitki növüdür.

Kayen bibəri, kartof, badımcan və pomidor kimi, "gecə kölgəsi" bitkiləri ailəsinə aiddir.

Kayen bibəri çili bibərindən kiçik, solğun narıncı meyvələrə və daha kəskin dada malik olması ilə fərqlənir. Kayen bibərinin acılığı Scoville cədvəli üzrə təxminən 30.000 ilə 50.000 vahid arasında dəyərləndirilir.

İndi isə bu bibərin insan organizminə olan faydaları haqda danışaq.

Kayen bibəri riboflavin, kalium, dəmir, niasin və maqnezium üçün əla mənbədir. Tərkibində həmçinin E, A, C, B6, K vitaminləri və manqan var. Onun tərkibində xolesterol və natrium səviyyəsi olduqca aşağıdır.

Tərkibində bibərə acı dad verən kapsaisin alkaloidi də var. Bundan əlavə, kayen bibərinin tərkibində piperidin, karotenoidlər dəsti, çavisin, efir yağları və piy yağlar var.

Kayen bibərinin ilk müsbət xüsusiyyəti onun dərhal qan stimullaşdırıcı təsirini təmin etmək qabiliyyətidir. Onun köməyi ilə bütün bədənə qida maddələrinin ötürülməsində məsul olan proseslər sürətlənir. Qeyd etmək lazımdır ki, bu bitkinin faydaları ümumiyyətlə qana faydalı təsir göstərir. Kayen bibəri qanı təmizləyir, bu da hormonal siqnalların bədəndən daha asan keçməsini təmin edir. Sadə dillə desək, məhsul immunitet sistemini gücləndirir. Bu bibərin ürək və damar sistemi xəstəlikləri üçün müsbət xüsusiyyətləri çoxdan sübut edilmişdir. Qeyd edilib ki, bu bibər növü ürək əzələsinin fəaliyyətini normallaşdırır. Tarixdə acı bibərin yeni başlayan infarktın dayandırılmasına kömək etdiyinə dair istinadlar var. Bu bibər qanı təmizləməsi ilə yanaşı, damarlara da təsir edərək, ateroskleroza səbəb olan lövhələrin yığılmasının qarşısını alır. Kayen bibəri xoralarla mübarizədə təsirlidir. Çoxları bunun absurd olduğunu deyəcək, amma belə deyil! Bu bitkilərin tərkibində pozulmuş həzm prosesini bərpa edən, həmçinin mədə mukozasını sağaldan maddə var. Acı bibər prostat xərçənginin müalicəsinə kömək edir. Kayen bibərinin insan orqanizminə təsirini təsdiqləyən real həyat hekayələri var. Onun köməyi ilə şişlər azaldılıb və xəstəliyin inkişafı dayandırılıb.

Kayen bibəri eyni zamanda, güclü antimikrob vasitədir. Göbələkləri, həmçinin göbələk iltihabına səbəb olan zərərli mikroorqanizmləri məhv edir. Onun kişi orqanizminə təsirini vurğulamamaq olmaz. Bibər potensiyanı artırır, qan dövranı prosesini stimullaşdıraraq çanaq nahiyəsində yerləşən orqanlara qan axınını təmin edir.

Kayen bibəri əzələ tutulmaları və allergiya ilə mübarizə üçün çox faydalıdır. Bədənə enerji verir, əhval-ruhiyyəni yüksəldir və həzmi yaxşılaşdırır. Kəskin təsiri ilə yaraları sağaldır.

Bu bibər istixanada deyil, bağda yetişdirilsə daha təsirli olacaq.

Lakin, faydalı xassələri ilə yanaşı, acı bibər də bir sıra əks göstərişlərə malikdir. Mədə və onikibarmaq bağırsaq xorası, pankreatit, qastrit, kolit və digər problemlər üçün qəti olaraq əks göstərişlərə malikdir. Həmçinin qaraciyər və böyrək patologiyalarından əziyyət çəkən insanlar acı bibər yeməməlidirlər. Hətta sağlam insan selikli qişaları yandırmamaq və mədə problemlərinə yol verməmək üçün acı bibərə (yalnız kayendə deyil) aludə olmamalıdırlar.

Hər hansı digər məhsul kimi, acı bibərin də allergiyaya səbəb ola biləcəyini xatırlamaq lazımdır. Həmçinin, qıcolmalara və epileptik tutmalara meyilli insanlar üçün acı bibər tövsiyə olunmur. Hamilə və körpə əmizdirən qadınlar acı qidalardan uzaq durmalıdırlar.

*(Davamı növbəti sayımızda)*

## TARİXDƏ NÖVBƏTİ HƏFTƏ



### 31 yanvar

•1865— ABŞ-də köləlik ləğv edilib.
•1946—SSRİ-yə bənzər Yuqoslaviyanın yeni konstitusiyası öz tərkibində altı respublika (Bosniya və Herseqovina, Xorvatiya, Şimali Makedoniya, Monteneqro, Serbiya və Sloveniya) təsis edib.
•1961— Şimpanze meymunu kosmosa səyahət edib.
•1996—Kolomboda Şri-Lanka Mərkəzi Bankının qapısına partlayıcı ilə dolu yük maşınının girməsi nəticəsində 91 nəfər həlak olmuş, 1400 nəfər yaralanmışdır.
•2020 — Böyük Britaniyanın Avropa İttifaqı daxilində üzvlüyü 50-ci maddəyə uyğun olaraq, 47 il üzv dövlət olduqdan sonra dayandırılıb

### 1 fevral

•1553—Osmanlı imperiyası və Fransa krallığı arasında İstanbul müqaviləsi imzalanıb.
•1895 — Lümyer qardaşları kinoteatrı icad ediblər.
•1907—Savle Tsereteli — gürcü filosofu anadan olub.
•1915 — 20th Century Studios şirkəti qurulub.
•1918—Rusiya Qriqorian təqvimini qəbul edib.
•1935—Ayasofiya muzey olaraq ziyarət edilməyə başlanılıb.
• ABŞ — Milli Azadlıq Günü

### 2 fevral

•1907 — Dmitri Mendeleyev, Rus, kimyaçı, vəfat edib.
•1934—Otar İoseliani gürcü kinorejissor, anadan olub.
•1943 — İkinci Dünya müharibəsi: Stalinqrad döyüşü başa çatmışdır.
•1967—Amerika Basketbol Assosiasiyası qurulub.
•ABŞ və Kanada da —Marmot günü ( ABŞ və Kanadada keçirilən milli bayram. Həmin gün marmotu yuvasından çıxarılır və onun özünü aparmasına görə havanın necə olacağına proqnozu verilir)

### 3 fevral

•1690—Massaçusets koloniyası Amerikada ilk kağız pulları buraxıb.
•1815— İlk kommersiya pendir fabriki açılıb (İsveçrə).
•1906—Mixeil Caparidze gürcü dramaturq ,anadan olub.
•2005—Zurab Jvaniya, gürcü siyasətçi, (baş nazir 2003-2005) vəfat edib.
•Yaponiya — Setsubun (milli bayram, Yaponiyada hər fəslin başlamasından əvvəlki son gün)

### 4 fevral

•1789 — Corc Vaşinqton ABŞ-nin ilk prezidenti seçilib.
•1794—Fransa qanunu respublikanın bütün ərazilərində (koloniyalar da daxil olmaqla) köləliyi qadağan edib.
•1910—**Həzi Aslanov, Azərbaycan general-mayoru, anadan olub.**
•1921—Konstantin Tsereteli gürcü dilçi, anadan olub.
•1945—Polad Bülbüloğlu, Azərbaycan müğənnisi anadan olub.
•1948—**Seylon (Şri - Lanka) müstəqil olub.**
•2004 — Facebook onlayn sosial şəbəkə saytı Mark Zukerberq və Eduardo Saverin tərəfindən təsis edilib.
• Birləşmiş Millətlər Təşkilatı—Ümumdünya Xərçəng Günü

### 5 fevral

•1852—Sankt-Peterburqda Ermitaj (dünyanın ən zəngin muzeylərindən biri) cəmiyyətə açılıb
•1864—Meliton Kelenjeridze, gürcü ictimai xadim, pedaqoq, folklorşünas, anadan olub.
•1960—Moskva şəhərində Rusiya Xalqlar Dostluğu Universiteti yaradılmışdır.
•1991—Azərbaycan SSR Ali Sovetinin sessiyasında dövlətin adının Azərbaycan Respublikası adlandırılması haqqında qərar qəbul edilib.
•2019—Roma Papası Fransisk Əbu-Dabiyə səfəri zamanı tarixdə Ərəbistan yarımadasını ziyarət edən və papalıq mərasimini keçirən ilk Roma Papası olmuşdur.

### 6 fevral

•1921— **Mixail Tumanişvili gürcü rejissor, anadan olub.**
•1946— Koreyada müvəqqəti hökumət quruldu. Ölkə 38-ci paralellə iki zonaya bölünüb: Şimali - Sovet, Cənubi Amerika.
•1952 — II Yelizaveta Böyük Britaniya kraliçası olub.
•2010— Gürcüstanın reqbi üzrə milli komandası Millətlər Kubokunda ilk oyununu keçirib.

# HƏFTƏNİN SEÇİLMİŞLƏRİ

## HƏZİ ASLANOV



***Həzi Əhəd oğlu Aslanov görkəmli Azərbaycan hərbçisi, iki dəfə Sovet İttifaqı Qəhrəmanı və İkinci Dünya Müharibəsində göstərdiyi şücaətlə tanınmış general-mayor.***

Həzi Aslanov 1910-cu il yanvarın 22-də Azərbaycanın Lənkəran şəhərində anadan olmuşdur. 13 yaşında atasını itirən Həzi, atasının çalışdığı kərpic zavodunda fəhlə kimi işləməyə başlayıb. İl yarımdan sonra komsomol göndərişi ilə Zaqafqaziya hərbi hazırlıq məktəbinə göndərilib. Zaqafqaziya hərbi hazırlıq məktəbinin rota qəzetinin redaktoru olub. Məktəb müdavimi ikən komsomol təşkilatının katibi seçilib. Daha sonra 8-ci çağırış Bakı Sovetinin üzvü seçilib. 1929-cu ildə oranı bitirdikdən sonra Leninqrad süvari məktəbinə daxil olub. İki illik təhsildən sonra Kotovski adına 3-cü Bessarabiya süvari diviziyasının 15-ci süvari alayına vzvod (taqım) komandiri təyin olunub. Kiçik yaşlarından hərbi peşəyə maraq göstərmiş və daha sonra o, Leninqrad Hərbi Zirehli Tank Məktəbini bitirərək tank qoşunları üzrə peşəkar təhsil almışdır.

Həzi Aslanov İkinci Dünya Müharibəsi zamanı Sovet Ordusunun tərkibində böyük uğurlara imza atmışdır. O, xüsusilə Stalinqrad döyüşlərində fərqlənmiş və düşmən mövqelərinə hücum taktikasında göstərdiyi bacarıqla tanınmışdır. Həzi Aslanovun rəhbərlik etdiyi tank bölmələri bir çox ağır döyüşlərdə qalib gələrək ön cəbhədə vacib dönüş nöqtələri yaratmışdır. Onun "cüt zərbə" taktikası, düşməni iki tərəfdən sıxışdıraraq mühasirəyə almağı hədəfləyirdi və bu taktika ilə bir çox uğurlu döyüşlər aparılmışdır.

Həzi Aslanov göstərdiyi şücaətə görə 1942-ci ildə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Onun ikinci dəfə bu ada layiq görülməsi təklif edilsə də, bu, yalnız ölümündən sonra, 1991-ci ildə gerçəkləşmişdir.

Həzi Aslanov 1945-ci ilin yanvarında, İkinci Dünya Müharibəsinin son dövrlərində, Latviya ərazisində gedən döyüşlər zamanı qəhrəmancasına həlak olmuşdur. Onun adı Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış və o, ölkənin hərbi qəhrəmanlarından biri kimi tanınır.

Həzi Aslanov, Azərbaycan xalqının hərbi iradəsinin, qəhrəmanlığının və vətənpərvərliyinin simvoludur.

## MİXAİL TUMANİŞVİLİ



***Mixail İvanoviç Tumanişvili gürcü, sovet teatr rejissoru və müəllimi, SSRİ xalq artisti idi.***

Mixail Tumanişvili 6 fevral 1921-ci ildə Tbilisidə anadan olmuşdur. Ailəsi gürcü ziyalılarından idi, bu da onun erkən yaşlarından mədəniyyətə və incəsənətə maraq göstərməsinə təsir etmişdir. O, erkən yaşlarından sənətə maraq göstərmişdir və teatr rejissorluğu sahəsində təhsil almaq qərarına gəlmişdir.

Mixail Tumanişvili 1939-cu ildən Şepetovka (Ukrayna) şəhərində Qırmızı Ordu sıralarında xidmət etmişdir. O, Kiçik rabitə komandirləri məktəbini bitirib. Müharibədə iştirak etmişdir. Əsir düşüb, iki dəfə qaçan Tumanişvili 1944-cü ildə ordudan tərxis olunaraq Gürcüstana qayıtmışdır və tamamilə teatr fəaliyyətinə yönəlmişdir.

1949 – cu ildə Tumanişvili Şota Rustaveli adına Tbilisi Teatr İnstitutunda təhsil almış və bu institutun görkəmli məzunlarından birinə çevrilmişdir.

O, 1965–1966-cı illərdə Şota Rustaveli adına Tbilisi Milli Teatrının direktoru olmuşdur. Bu dövrdə teatrda bir çox yeniliklər etmiş, klassik və müasir əsərləri səhnəyə qoymuşdur.

1971-1975-ci illərdə Mixail Tumanişvili Gürcüstan televiziyasının baş direktoru olub.

1975-ci ildən "Gürcüstan-film" kinostudiyasında teatr emalatxanasının baş direktoru olmuşdur.

1978-ci ildə Tumanişvili yeni teatr – Mixail Tumanişvili adına Kinoaktyor Teatrını təsis etmişdir. Bu teatr, gürcü teatr sənətində yeni yanaşmalarla fərqlənmişdir və Mixail Tumanişvilinin yaradıcılıq zirvəsi hesab olunur. Tumanişvili həm də böyük pedaqoq idi. Onun rəhbərliyi ilə bir çox gənc aktyor və rejissor yetişmişdir. Onun tələbələri arasında gürcü teatr və kino dünyasında tanınmış şəxsiyyətlər olmuşdur.

SSRİ xalq artisti adına layiq görülmüşdür. Dövlət mükafatları ilə təltif olunmuşdur. Gürcüstan teatrının inkişafına verdiyi töhfələr beynəlxalq səviyyədə də tanınmışdır.

Mixail Tumanişvili 1996-cı ildə vəfat etmişdir. Onun adına təsis edilmiş teatr bu gün də fəaliyyət göstərir və Gürcüstan mədəniyyətinin önəmli mərkəzlərindən biridir. Tumanişvili Gürcüstan teatr tarixində böyük şəxsiyyət kimi yadda qalmışdır.

## ŞRİ - LANKA

Seylon adı ilə tanınan Şri - Lanka, Hind okeanında yerləşən bir ada dövlətidir. Ada Cənubi Asiyanın cənubunda, Hindistan yarımadasının 31 kilometr cənubunda yerləşir və Mannar körfəzi ilə Hindistandan ayrılır. 1972-ci ilə qədər ölkə rəsmi olaraq "Seylon" adlanırdı, lakin bu tarixdən sonra ölkənin adı "Şri -Lanka Demokratik Sosialist Respublikası" olaraq dəyişdirildi. Şri-Lanka həm də Hind okeanının incisi adlandırılır.



**Əhali, dil və din:** Ümumi sahəsi 65610 kvadrat kilometr, əhalisinin sayı 22 milyon nəfərdən çoxdur. Əsas dillər singal dili və tamil dilidir. İngilis dili də rəsmi ünsiyyət və təhsil məqsədləri üçün geniş istifadə olunur. Ölkədə çoxsaylı dinlər mövcuddur; əsas din buddizm olsa da, hinduizm, xristianlıq və islam da geniş yayılıb. Şri-Lankada qədim ənənələrə əsaslanan zəngin mədəniyyət formalaşıb. Ənənəvi rəqslər, musiqi, əl işləri və festival günləri mədəniyyətin əsas elementlərindəndir.

**Coğrafiya:** Coğrafi mövqeyi Şri-Lankanın tarixi və mədəniyyətində mühüm rol oynayıb, onu ticarət yollarının mühüm mərkəzlərindən birinə çevirib. Ümumilikdə 1,340 kilometrlik sahil xəttinə malikdir. Hindistandan Polk boğazı vasitəsilə ayrılır.

**Təbiət və iqlim:** Şri - Lanka tropik iqlimi ilə tanınır. Ada zəngin bitki və heyvanat aləminə malikdir, çoxsaylı milli parklara, meşələrə və təbii gözəlliklərə sahibdir. Ən məşhur təbii sərvətləri arasında çay plantasiyaları, meşə örtüyü və qiymətli daş yataqları yer alır. Ölkə həmçinin YUNESKO-nun Dünya İrsi Siyahısına daxil olan qədim şəhərlər və arxeoloji yerlərlə zəngindir.

Dekabr və Mart ayları arasında tropik və şimal-şərq bölgəsi musson yağışlarının təsiri altında qalan iqlimin, İyun və oktyabr ayları arasında da cənub-qərb bölgəsi musson yağışlarının təsiri altında qalır. Şri - Lanka tropik iqlimə malikdir və gözəl təbiəti ilə tanınır. Ölkə dağlar, çaylar, göllər və tropik meşələrlə zəngindir. 2,524 metr yüksəkliyində olan Pidurutalagala dağı ölkənin ən yüksək nöqtəsidir. Ölkədə baş verən əsas təbii fəlakətlər qasırğa və burulğanlardır.

**Tarixi:** Seylon adı ilə tanınan ölkə qədim dövrlərdən bəri strateji əhəmiyyətə malik olub. Əsrlər boyu



müxtəlif imperiyaların və müstəmləkəçilərin nəzarətində olub. Əvvəlcə Portuqallar, sonra Hollandlar və nəhayət, Britaniyalılar burada hakimiyyət qurublar. 1948-ci ildə Şri - Lanka Britaniya müstəmləkəsindən azad olaraq müstəqillik qazandı. 1972-ci ildə isə ölkənin adı rəsmi olaraq Şri Lanka olaraq dəyişdirildi.

**Paytaxt və şəhərlər:** Ölkənin rəsmi paytaxtı Şri-Cəyavardenepura Kottedir. Lakin ən böyük şəhər və iqtisadi mərkəz Kolombodur.

**İqtisadiyyat:** Şri - Lanka əsasən kənd təsərrüfatına əsaslanan iqtisadiyyatla tanınır. Dünyaca məşhur Seylon çayı ölkənin ən böyük ixrac məhsuludur. Çay plantasiyaları XIX əsrdə britaniyalılar tərəfindən inkişaf etdirilmiş və bu gün də ölkə iqtisadiyyatının sütunlarından biri olaraq qalır. Bundan əlavə, kauçuk, kokos məhsulları və qiymətli daşlar da mühüm ixrac məhsullarıdır. Turizm sektoru da ölkə iqtisadiyyatında əhəmiyyətli rol oynayır.

**Turizm:** Şri - Lanka turistlər üçün cazibədar məkandır. Qədim məbədlər, çay plantasiyaları, tropik meşələr, çimərliklər və yabanı təbiət parkları turistlərin sevimli yerləri arasındadır. Qədim Anuradhapura və Polonnaruva şəhərləri, Sigiriya qayası, Qandi şəhərində yerləşən Məbəd kompleksləri kimi tarixi və dini məkanlar ölkəni daha da cazibədar edir.

Seylon (Şri - Lanka), zəngin tarixi, mədəni irsi və təbii gözəllikləri ilə təkcə Asiyanın deyil, dünyanın da diqqət mərkəzində olan ölkələrdən biridir.



GÜRCÜSTAN
Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება
"საქართველო"
"SAKARTVELO"
Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა



İDMAN — İDMAN

# NEYMAR KARYERASINI BU KLUBDA DAVAM ETDİRƏCƏK



***Səudiyyə Ərəbistanının "Əl-Hilal" klubunun hücumçusu Neymar karyerasını Braziliya təmsilçisi "Santos"da davam etdirəcək.***

Bu barədə jurnalist Fabritsio Romano məlumat paylaşıb.

Tərəflərin şifahi razılığa gəldiyi və müqavilənin bu həftə imzalanacağı bildirilib.

Daha əvvəl 32 yaşlı ön xətt oyunçusunun "Santos"da çıxış etmək üçün maaşının əhəmiyyətli dərəcədə azaldılmasına razılıq verdiyi də bildirilirdi. Futbolçu Səudiyyə Ərəbistanı klubu ilə müqaviləsinin başa çatmasına təxminən yarım il qalmasına baxmayaraq, artıq bu ay ölkəsinə qayıtmaq niyyətindədir.

Qeyd edək ki, braziliyalı futbolçu 2024-cü ildə zədə səbəbindən "Əl-Hilal"da cəmi iki oyuna çıxıb və 42 dəqiqə meydanda olub. Bununla yanaşı, hücumçunun illik qazancı 101 milyon avro təşkil edib.

MARAQLIDIR

## YENİ REKORD - DONUZ BÖYRƏYİ KÖÇÜRÜLMÜŞ AMERİKALI QADIN 61 GÜNDÜR YAŞAYIR

***Donuz böyrəyi transplantasiyası alan ABŞ vətəndaşı Tovana Luni 61 gündür onunla yaşayır və həyatı normal davam edir.***

O, belə bir əməliyyatdan sonra gözlənilən ömür uzunluğuna görə yeni rekorda imza atıb.

Bu barədə "Associated Press" məlumat yayıb.

Məqalədə deyilir: *"Alabamalı qadın şənbə günü böyük bir mərhələyə ça-taraq, donuz orqanlarını alan ən uzun ömürlü insan oldu".*



Nəşr qeyd edir ki, Luninin uğurlu əməliyyatı alimlərdə heyvan orqanlarının insanlara köçürülməsinin mümkün ola biləcəyinə ümid verir. İki ürək və iki böyrəyi olan xəstələrə transplantasiya edilən əvvəlki əməliyyatların uğurlu alınmadığı vurğulanır.

Həkimlərin sözlərinə görə, hazırda qadının böyrək funksiyası stabildir. Həkimlər qadının reabilitasiyadan təxminən bir ay sonra xəstəxanadan çıxa biləcəyini gözləyirlər.

Dekabrın 17-də Langone Sağlamlıq Xəstəxanasının cərrahları geni dəyişdirilmiş donuz böyrəyini Tovan Luniyə uğurla nəql ediblər. O, 8 il orqan nəqli gözləyib.

## BU QİTƏ PARÇALANIR! YENİ OKEAN YARANIR

***Afrika ikiyə bölünəcək və yeni bir okean meydana çıxacaq.***

Son araşdırmalarda parçalanmanın artıq iki dəfədən də çox sürətləndiyi üzə çıxıb.

Belə ki, Efiopiya səhrasında 56 km uzunluğunda olan çat 2005-ci ildə yaranıb və o vaxtdan bəri genişlənib. Əvvəllər tədqiqatçılar parçalanmanın on milyonlarla il çəkəcəyini düşünürdülər, lakin amerikalı professor Ken Makdonald bunun 1-5 milyon il ərzində baş verəcəyini bildirib.

Parçalanma nəticəsində Şərqi Afrika qitənin qalan hissəsindən yeni okeanla ayrılacaq.



BAŞSAĞLIĞI

"Gürcüstan" qəzetinin kollektivi Gürcüstan Azərbaycanlıları Konqresinin sədri Hüseyn Yusubova əzizi

**Rövşən İsa oğlu Kərimovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**

# TARİXLƏ NƏFƏS ALAN ŞƏHƏRİMİZ



**Foto E.Şahvəlÿədindir.**

## DÜNYANIN ƏN BÖYÜK AYSBERQİ SÜRƏTLƏ ƏRİYİR

***1986-cı ildə Antarktika buzlağından qopan və bir il öncə açıq okeana çıxan dünyanın ən böyük aysberqi "A23a" kütləsinin təxminən 9%-ni itirib.***



Bu barədə Arktika və Antarktika Tədqiqat İnstitutunun (AARI) mətbuat xidməti məlumat yayıb.

Məlumata görə, aysberq son vaxtlar ərimə səbəbindən ölçüsündə kiçilməyə başlayıb.

Hazırda "A23a" Cənubi Corciya adası yaxınlığında üzür.

## ABUNƏ YAZILMAĞI UNUTMAYAQ !

## "GÜRCÜSTAN" QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏRİN VƏ ABUNƏÇİLƏRİN NƏZƏRİNƏ!

***Hörmətli oxucular!***

"Gürcüstan" qəzeti Sizin sayənizdə bir əsrdir ki, davamlı nəşr olunaraq, öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib, oxuculara sədaqətlə xidmət edir. Mənəvi çırağımız olan qəzetimiz həmişə Sizə arxalanmış, Sizdən ilham almışdır.

"Gürcüstan" qəzeti öz səsi, sözü ilə sələflərin mübariz ruhunu, həmişəyaşar ənənələrini qoruyub saxlayır və beləliklə, aybaay, ilbəil, nəsilbənəsil Gürcüstan azərbaycanlılarının həyat salnaməsiniyaradır, mənəvi dəyərlərimizin zənginləşməsinə töhfələr bəxş edir, milli-mənəvi dəyərlərimizin daşıyıcısı kimi, dilimizin saflığının keşiyində qürurla dayanır. Qəzetimiz 2020-ci ilin mart ayına qədər 2000 nüsxə ilə nəşr olunurdusa, hal-hazırda qəzetin yayım coğrafiyası genişlənmiş, abunə sayı 55 faiz artaraq, 3100 nüsxəyə çatmışdır. Bir əsrdən çox ömrü olan "Gürcüstan" qəzetini yaşatmaq hər birimizin mütləq mənəvi borcudur. 2025-ci ildə "Gürcüstan" qəzetinə abunə olmaq istəyən şəxslər-fərdi abunəçilər (adını, soyadını və ünvanını göstərməklə), məktəblər, idarə, müəssisə və təşkilatlar yerlərdə qəzetin müxbirləri ilə və ya E-mail:Gurcustan_1921@mail.ru elektron poçtu vasitəsi ilə müqavilə bağlamaqla abunə haqqını qəzetimizin səkkizinci səhifəsində göstərilən bank hesabına köçürə bilərlər.

"Gürcüstan" qəzetinə illik abunə haqqı 20 (iyirmi) laridir. İl ərzində abunəçiyə həftədə bir dəfə olmaqla 50 (əlli) qəzet təqdim ediləcək.

***Milli mənəvi dəyərlərimizi yaşadan, dilimizin keşiyində duran, varlığımızın göstərcisi olan "Gürcüstan" qəzetini yaşatmaq və ondan bəhrələnmək üçün abunə olmağı unutmayın.***

Qəzetimizə il boyu abunə ola bilərsiz. Abunə müddəti ödəniş tarixindən başlanır. "Gürcüstan" qəzetinin qayğıkeş, əməksevər kollektivi Sizin xidmətinizdə dayanaraq, etimadınızı doğruldacaqdır.

Əvvəlcədən minnətdarlığımızı bildiririk.

**Qeyd:** Qəzetin abunəçiyə vaxtında çatdırılması təmin olunacaq.

Müdiriyyət.

გაზეთის ანგარიშის ნომერი
შპს „გურჯისტანი“ ს/კ 203863792
ანგარიშის **№ GE03LB0111185703773000**
სს ლიბერთი ბანკი **SWİFT: LBRTGE22**

Baş redaktor: Xələddin YOLÇUYEV
Redaktor müavini: Binnət MƏMMƏDOV
Redaksiyanın ünvanı:
Tbilisi şəh. Tsereteli pr. 142, I mərtəbə.
E-mail: Gurcustan_1921@mail.ru İNDEKS 66444
Əlaqə telefonu: +995 32 222 04 76
Qəzet "Kolori" nəşriyyatında çap olunur.
Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi müxtəlif ola bilər.